

"Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var".

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 1 dekabr 2021-ci il №94 (2602) https://mod.gov.az Qiyməti 30 qəpik


## Aşqabadda İqtisadi Əməkdaşlıq Təşkilatının XV Zirvə Toplantısı keçirilib

### Azərbaycan Prezidenti İlham Əliyev toplantıda iştirak edib

*Noyabrın 28-də Türkmənistanın paytaxtı Aşqabad şəhərində İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) XV Zirvə Toplantısı keçirilib.*



AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev toplantıda iştirak edib.

Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov Azərbaycan Prezidenti İlham Əliyevi qarşıladı.

Dövlət başçıları xatirə şəkli çəkdirdilər.

Sonra Prezident Qurbanqulu Berdiməhəmmədov İqtisadi Əməkdaşlıq Təşkilatının XV Zirvə Toplantısında iştirak etmək üçün Türkmənistana gələn digər qonaqları qarşıladı.

Dövlət və hökumət başçıları birgə foto çəkdirdilər.

Prezident Qurbanqulu Berdiməhəmmədov Zirvə Toplantısını açaraq tədbir iştirakçılarını salamladı. Türkmənistan Prezidenti İqtisadi Əməkdaşlıq Təşkilatının 15-ci Zirvə Toplantısına ev sahibliyi etməkdən məmnun olduğunu dedi. Təşkilatın üzv ölkələr arasında siyasi, iqtisadi və digər sahələrdə əlaqələrin möhkəmlənməsinə töhfə verəcəyini vurğuladı.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxış edərək Zirvə Toplantısına sədrliyin Türkiyədən Türkmənistana keçdiyini bildirdi, İƏT-ə üzv ölkələrin koronavirusla mübarizədə səylərinin birləşdirilməsinin vacibliyini vurğuladı, bu sahədə ölkəsində görülən işlərdən danışdı.

Prezident Rəcəb Tayyib Ərdoğan "Birlikdə gələcəyə" devizi ilə keçirilən Zirvə Toplantısının ortaq hədəfləri müəyyənləşdirmək, ticarət həcmini artırmaq, iqtisadi əlaqələri fəallaşdırmaq üçün yaxşı fürsət olduğunu vurğuladı. Türkiyə Prezidenti dedi:

- Türkiyənin irəli sürdüyü Xəzərdən keçən Şərq-Qərb Orta dəhliz təşəbbüsü və Bakı-Tbilisi-Qars dəmir yolu xətti bu kontekstdəki səylərimizin ən əyani təzahürüdür. Ölkəmizlə bölgəmiz arasında birbaşa avtomobil yolu bağlantısını quracaq Zəngəzur dəhlizinin də önəmi böyükdür.

Rəcəb Tayyib Ərdoğan çıxışında Azərbaycanın Vətən müharibəsindəki Qələbəsinin əhəmiyyətindən danışdı, bu Qələbənin bölgədə normallaşdırma səylərini gücləndirəcəyini vurğulayaraq dedi:

- Qardaşımız Azərbaycanın işğal altındakı torpaqlarını azad etməsi bölgədə davamlı sülhün və sabitliyin təmin olunmasının da qapılarını açıb. Azərbaycanın bölgədə rifahın artması üçün ərdıcıl həyata keçirdiyi layihələr təqdirəlayiqdir. Bu addımlar bölgədə normallaşdırma cəhdlərini dəstəkləyəcəkdir. Türkiyə olaraq bu prosesdə Azərbaycanın yanında olmaqda davam edəcəyik. Təşkilat olaraq da Azərbaycan ilə tam həmrəylik içərisində olmağımız böyük önəm daşıyır.

Sonra dövlətimizin başçısı Zirvə Toplantısında çıxış etdi.

**Prezident İlham Əliyevin çıxışı**

- Cənab sədr, əziz qardaşım Qurbanqulu Məlikquliyeviç.

Hörmətli dövlət və hökumət başçıları.

Cənab Baş katib.

Qardaşım, Türkmənistan Prezidenti Qurbanqulu Məlikquliyeviç Berdiməhəmmədova göstərilən qonaqpərvərliyə görə təşəkkürümü bildirmək və Türkmənistanı İqtisadi Əməkdaşlıq Təşkilatında (İƏT) uğurlu sədrlik münasibətilə təbrik etmək istərdim.

Fürsətdən istifadə edərək, qardaş Özbəkistanı İƏT-də sədrliyi öz üzərinə götürməsi münasibətilə təbrik edir və Təşkilata rəhbərlik işində uğurlar arzu edirəm.

Azərbaycan İƏT-in fəal üzvüdür. İƏT-ə üzv dövlətlərlə münasibətlərimiz dostluq və qarşılıqlı hörmətə əsaslanır. Biz, həmçinin beynəlxalq platformalarda, o cümlədən İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatı çərçivəsində İƏT-ə üzv dövlətlərlə səmərəli əməkdaşlıq edirik.

İqtisadi Əməkdaşlıq Təşkilatının mart ayında keçirilmiş XIV Zirvə Toplantısında İƏT-in Tədqiqat Mərkəzinin Nizamnaməsi imzalanmışdır. Mən Azərbaycanın mərhum Prezidenti Heydər Əliyevin təşəbbüsünün üzv dövlətlər tərəfindən dəstəklənməsinə görə təşəkkürümü bildirirəm. Azərbaycan ölkəmizdə yerləşəcək Mərkəzin səmərəli fəaliyyətinin təmin edilməsi üçün səylərini əsirgəməyəcək. Mən digər üzv dövlətləri bu mühüm təşəbbüsə qoşulmağa dəvət edirəm.

Son 18 il ərzində Azərbaycan iqtisadiyyatı sürətlə inkişaf etmiş, ümumi daxili məhsul üç dəfədən çox artmışdır.

Genişmiqyaslı islahatlar nəticəsində Azərbaycanda münbit sərmayə iqlimi yaradılmışdır. Dünya Bankının "Doing Business" hesabatında Azərbaycan 190 ölkə arasında 28-ci yerdə qərarlaşıb. Azərbaycan iqtisadiyyatına 280 milyard ABŞ dolları həcmində sərmayə yatırılıb ki, bunun da yarısı xarici sərmayədir.

Bizim strateji valyuta ehtiyatlarımız xarici dövlət borcumuzdan 6 dəfə çoxdur.

Azərbaycanın xarici borcu ölkənin ümumi daxili məhsulunun, sadəcə, 17,3 faizini təşkil edir. Biz 2030-cu ilin sonuna qədər bu rəqəmi 10 faizə endirməyi planlaşdırırıq.

Ötən 18 il ərzində Azərbaycanda yoxsulluq səviyyəsi 49 faizdən 6 faizə enib. Ölkədə işsizlik təqribən 6 faiz səviyyəsindədir.

Azərbaycanın nailiyyətləri beynəlxalq qurumlar tərəfindən yüksək qiymətləndirilir. Davos Dünya İqtisadi Forumunun hesabatına əsasən, Azərbaycan hökumətin uzunmüddətli strategiyası üzrə dünyada 10-cu yerdə, ölkə rəhbərliyinin islahatlara sadiqliyi sahəsində isə 5-ci yerdə qərarlaşıb. Yenə də Davos hesabatına əsasən, Azərbaycan əhalinin elektrik enerjisinə əlçatanlıq əmsalına görə dünyada 2-ci, dəmir yolu xidmətlərinin səmərəliliyinə görə 11-ci, hava nəqliyyatı xidmətlərinin səmərəliliyinə görə 12-ci, dəniz limanları xidmətlərinin səmərəliliyinə görə 25-ci və yol infrastrukturunun keyfiyyəti baxımından 27-ci yerdədir.

COVID-19-a gəlincə, Azərbaycan cari ilin yanvar ayının ortalarından peyvəndlənmə kampaniyasına başlamışdır. Ölkədə yetkin əhalinin 60 faizdən çoxuna iki doza peyvənd vurulmuşdur.

Bu günə qədər ölkədə COVID-dən əziyyət çəkmiş insanlara və biznes subyektlərinə təqribən 3 milyard ABŞ dolları həcmində sosial-iqtisadi dəstək paketi təqdim edilmişdir. 2022-ci ildə həmin məqsədlərə dövlət büdcəsindən 1,6 milyard ABŞ dolları həcmində maliyyə dəstəyi paketi ayrılacaqdır.

Azərbaycan pandemiya ilə mübarizə sahəsində qlobal səylərin səfərbər edilməsi üçün mühüm addımlar atır. Biz "peyvənd millətçiliyi"nin qəti şəkildə əleyhinə olduğumuzu daim vurğulayırıq.

Bu il Qoşulmama Hərəkatının sədri qismində Azərbaycanın təşəbbüsü ilə BMT-nin İnsan Hüquqları Şurası və BMT Baş Assambleyasında bütün ölkələr üçün peyvəndlərdən istifadə məqsədilə bərabər imkanların təmin olunmasına dair qətnamələr qəbul edilib.

Bundan əlavə, Azərbaycan koronavirusla mübarizəni dəstəkləmək məqsədilə 80-ə yaxın ölkəyə birbaşa və Ümumdünya Səhiyyə Təşkilatının xətti ilə maliyyə və humanitar yardımı etmişdir.

Hörmətli həmkarlar, 2020-ci ildə Azərbaycan ərazilərinin Ermənistan tərəfindən 30 ilə yaxın davam edən işğalına son qoydu. 44 günlük Vətən müharibəsi Ermənistanın məğlubiyyəti və 2020-ci il noyabrın 10-da kapitulyasiya aktını imzalamasına məcbur edilməsi ilə nəticələndi. Azərbaycan özü öz ərazi bütövlüyünü bərpa etdi. Azərbaycan özü BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamənin icrasını təmin etdi.

İşğal dövründə həmin ərazilərdə bütün şəhər və kəndlər, o cümlədən mədəni və dini irs abidələri Ermənistan tərəfindən yerlə-yeksan edilib. Bütün müsəlmanlara qarşı təhqir və nifrət zəminində Ermənistan bizim məscidləri dağıtmış və təhqir etmiş, o cümlədən onlardan donuz və inək tövləsi kimi istifadə etmişdir. İşğal dövründə həmin ərazilərdə 67 məsciddən 65-i tamamilə dağıdılmış, digər iki məscidə isə ciddi zərər dəymişdir. Qəbiristanlıqlar da vandalizmə məruz qalmışdır.

**(Ardı 2-ci səhifədə)**

# Aşqabadda İqtisadi Əməkdaşlıq Təşkilatının XV Zirvə Toplantısı keçirilib

## Azərbaycan Prezidenti İlham Əliyev toplantıda iştirak edib

(Əvvəli 1-ci səhifədə)




Ərazilərin azad olunmasından dərhal sonra biz genişmiqyaslı yenidənqurma işlərinə başlamışıq ki, artıq onların ilkin nəticələri var. Azərbaycan yalnız özünün maliyyə resurslarına arxalanaraq, sıfırdan yeni şəhər və kəndlər salır. Bu il bu məqsədlərə dövlət büdcəsindən 1,3 milyard ABŞ dolları ayrılmışdır. 2022-ci ildə də bu işlərə ən azı eyni həcmdə vəsait ayrılacaqdır.

Mən azad olunmuş Qarabağı və Şərqi Zəngəzuru yaşıl enerji zonası elan etmişəm. Azad olunmuş ərazilərin təsdiqlənmiş potensialı 7200 meqavat günəş və 2000 meqavat külək enerjisi təşkil edir.

İqtisadi Əməkdaşlıq Təşkilatının sonuncu Zirvə Toplantısında mən həmkarlarıma Zəngəzur dəhlizi haqqında məlumat vermişdim. Bu gün deyə bilərəm ki, Zəngəzur dəhlizi reallığa çevrilir. Bu yeni nəqliyyat infrastrukturu Şərq-Qərb və Şimal-Cənub dəhlizlərinin önəmli hissəsinə çevriləcək. Əminəm ki, İƏT-ə üzv ölkələr bu dəhlizdən istifadə edəcəklər.

Diqqətinizə görə sağ olun.

* * *

Zirvə Toplantısında çıxış edən Pakistan Prezidenti Arif Alvi də Azərbaycanın Vətən müharibəsindəki Qələbəsi münasibətilə təbriklərini çatdıraraq dedi:

- Bu fürsətdən istifadə edib Azərbaycan torpaqlarının işğaldan azad edilməsi və ərazi bütövlüyünün bərpası münasibətilə Prezident Əliyevi bir daha təbrik etmək istərdim. Onun bu işə töhfəsini çox yüksək qiymətləndirirəm.

* * *

Daha sonra İqtisadi Əməkdaşlıq Təşkilatının baş katibi Xosrov Naziri, İran Prezidenti İbrahim Rəisi, Qırğız Respublikasının Prezidenti Sadır Japarov, Tacikistan Prezidenti Emoməli Rəhmon, Özbəkistan Prezidenti Şavkat Mirziyoyev və Qazaxıstanın Baş naziri Askar Mamin təşkilat çərçivəsində əməkdaşlığın genişləndirilməsinin, iqtisadi əlaqələrin daha da möhkəmləndirilməsinin vacibliyini vurğuladılar, yeni çağırışlar müstəvisində ortaya çıxan təhlükələrə qarşı birgə mübarizənin zərurətindən danışdılar.

### Təlim

# Mühəndis-istehkamçılarımız döyüş tapşırıqlarını məsuliyyətlə yerinə yetirirlər



*Rəşadətli Azərbaycan Ordusunun zəfəri ilə başa çatan Vətən müharibəsində bütün qoşun növlərimiz qarşıya qoyulan döyüş tapşırıqlarının öhdəsindən layiqincə gəldilər. Cəsur döyüşçülərin sayəsində torpaq həsrətinə son qoyuldu. Torpaqlarımızın azadlığı uğrunda aparılan əməliyyatlarda sinəsini düşmən gülləsinə sipər edərək, bir addım da olsun geri çəkilməyən şəhidlərimizin qisası alındı.*

Kəşfiyyatçılarımızın düşmənin kabusuna çevrilməsi, artilleriyaçılarımızın dəqiq koordinatlar çıxararaq düşmən hədəflərini məhv etməsi, hərbi təyyarəçilərimizin döyüş tapşırıqlarının öhdəsindən məharətlə gəlmələri və məğrur əsgərlərimizin mətin addımlarla irəliləməsi nəticəsində doğma Qarabağımız əbədi və əzəli sahiblərinə qovuşdu. Əlbəttə, haqq savaşında tapşırıqları məharətlə icra edən mühəndis-istehkamçılarımızı da xüsusi qeyd etməliyik. Çünki döyüş zamanı onların xidmətləri əvəzolunmazdır. Məhz peşəkar mühəndis-istehkamçılar ərazilərdəki mina sahələrindən keçidlər açaraq, ordumuzun düşmən mövqelərinə irəliləməsini təmin etdilər. Onlar silahdaşlarına təhlükəsiz yol açmaq üçün ən çətin tapşırıqların öhdəsindən layiqincə gəldilər. Bunun nəticəsi olaraq rəşadətli ordumuz 44 gün ərzində tarixi qələbəni qazandı. İllərdir doğma yurdumuzda məskunlaşan erməni əsgərlərini qovub çıxartdılar.

"N" hərbi hissəsində günün nizam qaydasına uyğun olaraq şəxsi heyət leytenant Orxan Rəsulovun rəhbərliyi altında mühəndis şəhərciyində şərti düşmənin mina sahəsindən keçidlərin açılması tapşırığını icra edirdi. Əsgərlərimizin təmkinli və ehtiyatlı hərəkəti, peşəkarlıq nümayiş etdirməsi bizdə xoş təəssürat yaradırdı. Dərs prosesi bitdikdən sonra zabitlə söhbət etdik. O bildirdi ki, mühəndis təminatı tapşırıqlarının yerinə yetirilməsi zamanı şəxsi heyətin mənəvi-psixoloji dözümlülüyünün artırılması da əsas məqsədlərdən hesab olunur. "Mühəndis-istehkamçı ixtisası təhlükəlidir. İstehkamçılar yaxşı düşünməli, qeyri-standart yanaşmağı bacarmalı və ən əsası - gərgin vəziyyətlərdə narahat olmamalı, təmkinli olmalıdırlar. Çünki stres, təmkinin pozulması səhv etmək şansını artırır. Bunları yaxşı dərk edən hər bir əsgər öz məsuliyyətini yaxşı anlayır. Döyüş zamanı onların ani bir səhvi başqalarının ölümünə səbəb ola bilər".

- 44 günlük Vətən müharibəsində mühəndis-istehkamçılar qarşıya qoyulan bir çox çətin döyüş tapşırıqlarının öhdəsindən gəldilər. Onların peşəkarlığı və qorxmazlığı nəticəsində düşmənin illərdir qurduğu mühəndis-istehkam qurğuları məhv edildi. Bu isə bölmələrimizin sürətli irəliləməsini birbaşa təmin etdi. Torpaqlarımız ard-arda mənfur düşməndən azad edildi. Beləliklə, bu gün hər birimiz qalib ordunun sırasında xidmət etdiyimiz üçün qürur duyuruq. Fəxr edirik ki, Ali Baş Komandanın rəhbərliyi altında tarixi torpaqlarımızı işğalçılardan azad etdik, - leytenant Orxan Rəsulov dedi.

Hərbi xidmətə Gəncə şəhərindən çağırılan əsgər Şəhriyar İsmayılzadə bildirdi ki, bu gün ana Vətənin keşiyində dayanmaq mənə də nəsib olub. "Hərbi xidmətin artıq çox hissəsini geridə qoymuşam. Bir neçə aydan sonra ailəmin yanına qayıdacam. Xidmətim zamanı bir çox yaddaqalan günlərim oldu. Amma ən yaddaqalan və xatirəmə ömürlük həkk olunan Vətən müharibəsidir. Çünki biz uzun zamandır şəhidlərimizin qisasını alacağımız və doğma el-obamızı azad edəcəyimiz günü gözləyirdik. Haqq savaşımızın başladığı andan etibarən bölmələrimiz müvafiq istiqamətlərdə döyüş tapşırıqların öhdəsindən layiqincə gəldik. Verilən bütün əmrləri vaxtında icra etdik. Hər bir anın necə vacib olduğunu yaxşı dərk edirdik. Döyüşlər zamanı xalqımızın daim ordumuzun yanında olması isə bizi daha da ruhlandırırdı. Buna görə daha inamla irəliləyirdik. Rəşadətli ordumuzun güc və qüdrəti nəticəsində düşmənin mifləşdirdiyi ordusu məhv edildi. Doğma Qarabağımız azad edildi. Evimə qalib əsgər kimi qayıdacağam. Bilirəm, valideynlərim də qürurlanır ki, oğlumuz torpaqlarımızı azad olunması uğrunda gedən döyüşlərdə iştirak edib. Vətənə olan övladlıq borcunu layiqincə yerinə yetirib. Mən bununla fəxr edirəm".





Əsgər Elşən İsmayılzadə də söhbətimizə qoşuldu. - Qalib ordunun zabitlərinin rəhbərliyi ilə keçirilən məşğələlər zamanı biz döyüş hazırlığımızı da daim yüksək səviyyədə saxlayırıq. Bunun nəticəsidir ki, doğma torpaqlarımızı azad etdik.

Əsgər Cəmil Hacıyev bildirdi ki, Vətən müharibəsi hərbi xidməti dövrünə düşdüyü üçün sevinclidir. "Mən də hər bir vətənpərvər gənc kimi bu döyüşlərin başlanmasını səbirsizliklə gözləyirdim. Düşməndən xalqımızın qisasını alanların sırasında olmağımı arzulayırdım. Şükürlər olsun ki, istəyimə nail oldum. Düşmənin döyüş meydanında silahını yerə ataraq təslim olmasını görmək hər birimizdə ruh yüksəkliyi yaradırdı".

Əsgər Nihad Əliyev və başqaları da Vətən müharibəsi zamanı yaşadıqları xoş xatirələrindən, Vətənə olan sevgilərindən, xidmətdə əldə etdikləri bilik və bacarıqlarından söhbət etdilər. Biz də öz növbəmizdə qalib ordunun şəxsi heyəti ilə sağollaşıb gələcək xidmətlərində onlara uğurlar arzuladıq.

**Baş leytenant
Orxan HÜSEYNLİ
"Azərbaycan Ordusu"
fotolar
çavuş
Namiq PƏNAHOVUNDUR**

Döyüş hazırlığı

# Səngərdən döyüşə, döyüşdən qələbəyə

*Müzəffər Ali Baş Komandanımızın qətiyyəti, ordumuzun rəşadəti, xalq-dövlət birliyi nəticəsində 2020-ci il hər birimizin yaddaşına Zəfər ili kimi həkk olundu. Sentyabrın 27-də düşmənin cəbhə boyu həyata keçirdiyi genişmiqyaslı təxribata cavab olaraq başlayan əks-hücum əməliyyatları Vətən müharibəsinə çevrildi. Qorxmaz, vətənsevər, ən müasir, hərbi texnika ilə təchiz olunan, istənilən hərbi tapşırığı uğurla həyata keçirə bilən rəşadətli Azərbaycan Ordusu tarixi torpaqlarımıza qovuşmaq eşqi ilə düşmən üzərinə şığıdı. İşğalçıları tarixi torpaqlarımızdan qovdu. Bu döyüşlər bütün dünyaya müasir döyüşün ən mürəkkəb tapşırıqlarını müvəffəqiyyətlə yerinə yetirməyə hazır olan ordumuzun peşəkarlığının, gücünün nümayişi oldu.*



44 günlük Vətən müharibəsi zamanı aparılan əməliyyatlar ordumuzun hər an istənilən çətin tapşırığa hazır olduğunu, onun döyüş qabiliyyətinin, peşəkarlığının, yeni silah sistemlərindən və döyüş texnikasından istifadə etmək bacarığının yüksək səviyyədə olduğunu bir daha göstərdi. Döyüşlər zamanı ordumuzun bütün qoşun növləri üzərlərinə düşən vəzifələrin öhdəsindən bacarıqla gəldilər. Şəxsi heyət arsenalımızda olan müasir silah və texnikadan, zirehli döyüş maşınlarından məharətlə istifadə edərək düşmən üzərində parlaq qələbə qazandı.

Vətən müharibəsində artilleriya vasitələrinin rolu danılmazdır. Artilleriyanın geniş miqyaslı döyüşlərdə istifadəsi piyada və tanklara dəstək üçün vacibdir. Tarixən artilleriyanın daşınması və yerləşdirilməsi mürəkkəb bir proses hesab olunurdu. Bu prosesin həll edilməsi cəhdləri özüyeriyən artilleriya qurğularının yaranmasına səbəb oldu. Sürətli şəkildə döyüş yerinə gedə bilməsi və çevikliyi ilə böyük üstünlüyə sahib olan bu döyüş maşınlarından biri də "2S3M" özüyeriyən artilleriya qurğusudur.

"N" hərbi hissəsində olarkən bu döyüş maşınının heyəti ilə aparılan məşğələnin şahidi olduq. Hərbi hissənin zabiti Tural Abbasov "2S3M" özüyeriyən artilleriya qurğusundan Vətən müharibəsində uğurla istifadə edildiyini qeyd etdi. "Döyüş ruhu və hərbi hazırlığı yüksək olan ordu güclü ordudur", - deyə zabit söhbətə başladı.

- Bir vətəndaş və hərbçi olaraq qürurluyuq ki, Vətən, torpaq həsrətinə rəşadətli ordumuz tərəfindən son qoyulub. İllərdir düşmən işğalında olan torpaqlarımızda bu gün artıq şanlı bayrağımız dalğalanır. Bayrağı dalğalandıranlar qarış-qarış torpaqlarımızı işğaldan azad etdilər. Döyüş meydanında Azərbaycan əsgərinin qarşısında tab gətirə bilməyən erməni işğalçıları anladılar ki, torpaqlarımızı tərk etməsələr, ordumuz onları tamamilə məhv edəcək. Ürəyi Vətən eşqi ilə alışıb yanan oğullarımızın qarşısında aciz qalan düşmən məğlubiyyətini qəbul edib, döyüş meydanından qaçdı.

Gizir Elşən Məmmədov xidməti dövründə torpaqlarımızın azadlığı uğrunda gedəcək döyüşlərin iştirakçısı olmağı arzulayıb. "Vətən müharibəsində döyüş əmrini alanda çox həyəcanlandım. Çünki çiynimizdə böyük məsuliyyət vardı. Əks-hücum əməliyyatı başladı və düşmənə zərbələr endirməliydik. Təlimlərdə qazandığımız təcrübə, Vətən sevgisi bizi addım-addım irəliyə aparırdı. Hər birimizin bir amalı, bir düşüncəsi var idi - torpaqlarımızı yağı düşməndən azad etmək. Bu istəklə düşmənə zərbə vururduq. Zərbələr sarsıdıcı və dəqiq olurdu. Nəticədə qoşunlarımız rahat irəliləyirdilər. Şükürlər olsun ki, tapşırığın öhdəsindən layiqincə gəldik".

Əsgər Əşrəf İsayev Vətən müharibəsi iştirakçısı olduğu üçün qürur duyduğunu dedi. "Hələ kiçik yaşlarımdan hərbi forma geyinib Vətənə əsgər olmağın arzusundaydım. Xidmətə başladığım gün çox sevincli idim. Artıq mən də Vətənimin müdafiəsində dayanacaqdım.

Qismət elə gətirdi ki, Vətən müharibəsinin iştirakçısı oldum. Təlim və məşqlərdə qazandığım bilik və bacarıqları döyüş meydanında müvəffəqiyyətlə nümayiş etdirdim. Açdığımız dəqiq atəşlərlə düşmənin xeyli sayda canlı qüvvəsini və texnikasını məhv etdik".

Söhbətimizə əsgər Seyidqulu Ağayev də qoşuldu. Vətən müharibəsində göstərdiyi uğurlu fəaliyyətə görə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Suqovuşanın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Ağdamın azad olunmasına görə" medalları ilə təltif olunub. "Şanslı gənclərik ki, müstəqil dövlətimiz, Müzəffər Ali Baş Komandanımız və rəşadətli ordumuz var. Vətəndaş kimi bizi təkcə bir problem narahat edirdi. Artıq o problem də həll olundu - tarixi qələbə qazandıq, əzəli torpaqlarımızı işğaldan azad etdik. Bu möhtəşəm qələbədə pay sahibi olduğum üçün çox qürurluyam", - əsgər Seyidqulu Ağayev bildirdi.

Əsgər Rəşad Quliyev bir neçə aydır ki, ordu sıralarında xidmət edir. Vətən müharibəsində iştirak edə bilməsə də, Vətəninə, torpağına bağlı vətənpərvər gənclərdəndir. "Bu gün çox şadam ki, güclü, qalib və rəşadətli Azərbaycan Ordusunda xidmət edirəm. Hərbi xidmət hər birimiz üçün əhəmiyyətlidir. Bu dövrdə döyüşçüyə xas olan vacib vərdişləri mənimsəyirik, həmçinin bir çox mənəvi keyfiyyətlərə alışırıq. Keçirilən dərslərdə komandirlərimizin öyrətdiklərini mənimsəyir, təlimlər zamanı bildiklərimizi və öyrəndiklərimizi nümayiş etdiririk".

Beləliklə, əsgərlərimizlə söhbətdən sonra əminliklə deyə bilərik ki, belə igid, vətənpərvər, yüksək döyüş hazırlığına malik oğulları olan ordunun qarşısında heç bir düşmən qüvvəsi dayana bilməz. Bu amillər Azərbaycan əsgərini Qələbəyə aparan ən böyük güc oldu. İllərdir işğalda olan torpaqlarımızdan düşmənin ayağı kəsildi. Bir an belə düşünmədən, qorxmadan Azərbaycanımızın suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərin qəhrəman ruhlarının hakim olduğu səmalarda şanlı üçrəngli bayrağımız qürurla dalğalandı! Bu qürur azərbaycançılıqdır. Əsgərin ürəyindən başlayan, Şuşada üçrəngli bayraqla birlikdə səmaları bəzəyən Vətən sevgisidir. Bu sevgini, Zəfəri yaşayanlar və xalqa yaşadanlar daha həssaslıqla yaşayırlar. Sevinci qəlblərə sığmayanların var səsiylə qışqırmaq keçir könlündən: Azərbaycan əsgəri torpaqlarımızı azad etdi! Azərbaycan əsgəri səngərdən döyüşə, döyüşdən qələbəyə yollandı. Sonda Zəfər haqqın tərəfində oldu!..

**Leytenant**
**Oruc MUSTAFAYEV**
**"Azərbaycan Ordusu"**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# "N" hərbi hissəsində döyüş atışlı taktiki təlim keçirildi



Şəxsi heyətin döyüş vərdişlərinin artırılması prioritet məsələlərdən biridir. Hərbi qulluqçuların nəzəri və praktiki biliklərinin, mənəvi-psixoloji hazırlıqlarının təkmilləşdirilməsi, şəxsi heyətin xidmətə hazırlanmasına yardımçı olmaq məqsədilə müntəzəm olaraq təlimlər, məşğələlər keçirilir. Hərbi potensialımızın və hərbi kadrların təkmilləşdirilməsinin nəticəsidir ki, Azərbaycan Ordusu Vətən müharibəsini qələbə ilə başa vurdu. Aparılan əməliyyatlarda 44 günə hərbçilərimizin ən mürəkkəb tapşırıqları müvəffəqiyyətlə yerinə yetirməsi, onların döyüş qabiliyyətinin və peşəkarlığının, yeni silah sistemlərindən və döyüş texnikalarından istifadə etmək bacarıqlarının yüksək səviyyədə olduğunu bir daha sübut etdi. Bu qələbənin qazanılmasında illərdir orduda keçirilən təlimlərin də böyük rolu oldu. Təbii ki, təcrübə əsas amillərdən biridir. Şəxsi heyət keçirilən məşğələlər və təşkil olunan təlimlər zamanı qazanılan təcrübəni, nəzəri və praktiki bilikləri qarşıya qoyulan tapşırıqların icrasında uğurla istifadə etdilər. Peşəsinin sirlərinə dərindən yiyələnən hərbçilərimiz qazanılan zəfərlə təlimlər zamanı tökülən tərin haqqını verdilər.

Qələbədən sonra da təlimlər davam edir. 2021-ci ilin döyüş hazırlığı planına uyğun olaraq "N" hərbi hissəsində keçirilən döyüş atışlı taktiki təlimə cəlb edilən şəxsi heyət və xüsusi texnikalar təlim bölgəsinə yola düşdü. Plana əsasən həyəcan siqnalı ilə qaldırılan bölmələr və komanda idarəetmə məntəqələri təyinat rayonlarına çıxarıldı.

Təlimdə iştirak edən leytenant Araz Vəliyevin fikirlərini öyrəndik. "Keçirilən bu təlimlər şəxsi heyətin döyüş qabiliyyətinin güclənməsində də əhəmiyyətli rol oynayır. İştirak edən şəxsi heyət həm fərdi, həm də komanda şəklində tapşırıqların yerinə yetirilməsi zamanı yüksək bacarıq və peşəkarlıq nümayiş etdirirlər", - zabit dedi.

Təlim zamanı seçilən əsgər Əmrah Əmirov ilə həmsöhbət olduq. "Belə təlimlərin keçirilməsi bizə həm təcrübə qazandırır, həm də döyüş qabiliyyətimizi artırır. Komandirimiz tərəfindən keçirilən döyüş hazırlığı dərslərində öyrəndiyimiz nəzəri bilikləri praktiki olaraq həyata keçirmək, döyüş meydanında uğur qazanmaq üçün imkan əldə edirik. Qalib ordunun əsgərləri olaraq hər an döyüşə hazır olmalıyıq", - əsgər Əmirov dedi.

Hədəfləri dəqiq nişan alan əsgər Samir Rzayev də söhbətimizə qoşuldu.

"Keçirilən təlimlər bizlərə bir təcrübəli əsgər kimi formalaşmağımıza, silahlardan sərbəst istifadə etməyimizə kömək olur. Təlimdə yüksək bacarıq göstərdiyimizə görə komandirlərimizə borcluyuq. Hər birimizin döyüşçü kimi yetişməsində zabitlərimizin böyük zəhməti var.

Onlar döyüş hazırlığı ilə yanaşı, vətənpərvərlik hisslərinin aşılanması istiqamətində də söhbətlər aparır, Milli qəhrəmanlarımızdan tez-tez söz açaraq onların adına layiq xidmət etməyi tövsiyə edirlər".

**Leytenant**
**Oruc MUSTAFAYEV**
**"Azərbaycan Ordusu"**

# HHM bölmələrinin döyüş atışları keçirilib



*2021-ci il üçün döyüş hazırlığı planına əsasən, Hava Hücumundan Müdafiə (HHM) bölmələrinin döyüş atışları keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, atışların əsas məqsədi şəxsi heyətin zenit qurğularından istifadəetmə bacarıqlarının təkmilləşdirilməsi və bölmələrin döyüş qabiliyyətinin daha da yüksəldilməsidir.

Hava hücumundan müdafiə vasitələrinin döyüş heyətləri tərəfindən aşkar olunan şərti düşmən hava hədəflərinin praktiki atışlarla məhv edilməsi tapşırıqları peşəkarlıqla icra edilib.

*Tarix yazan oğullar*

# Cəsur döyüşçü



Vətənini, torpağını canından artıq sevən oğullardan biri də Musa Rövşən oğlu Əsgərov idi. Erməni faşistlərinin Gəncəyə raket hücumları, törətdikləri terror aktları onun düşmənə olan nifrətini daha da artırırdı. Gəncənin vurulması xəbərindən hiddətlənən Musanın qəlbi qisas hissi ilə alışıb yanırdı. "Axı o dinc insanların, süd qoxulu körpələrin nə idi günahı", - deyə düşünürdü Musa...

Vətən müharibəsində yüksək döyüş bacarığı ilə seçilən Xüsusi Təyinatlı Qüvvələrin cəsur döyüşçüsü əsgər Musa Rövşən oğlu Əsgərov 16 iyun 2000-ci ildə Daşkəsən rayonunun Muşavaq kəndində anadan olub. 40 ildən artıq həmin məktəbdə ibtidai sinif müəllimi işləyən babası Qəzənfər Əsgərov nəvəsinə milli-mənəvi dəyərlərimizi, Vətənə, torpağa sevgini, elə, obaya bağlılığı aşılayıb. Musa ibtidai təhsilini də elə babası Qəzənfər müəllimin sinfində alır. Valideynləri Gəncə şəhərinə köçəndən sonra o, təhsilini Gəncə şəhər 12 nömrəli tam orta məktəbində davam etdirir. Daim idmanla məşğul olur, savadı, zəkası, əməksevərliyi, qorxmazlığı ilə yaşıdlarından fərqlənir. Vətənpərvər ruhlu Musanın tarixə, ədəbiyyata böyük marağı olub. Hələ orta məktəbdə oxuyan zaman şeirlər də yazıb. İndi anası Hüsniyyə xanım onun yazdığı əlyazmaları gözbəbəyi kimi qoruyur.

İki oğul, bir qız övladı olan ailənin böyüyü Musa idi. O, 18 yaşında hərbi xidmətə getdi, əsgər formasını əyninə geyindiyi ilk gündən ömrünü hərb peşəsinə bağlamaq qərarı verdi. Ön xətt bölmələrimizdə, düşmənlə təmas xəttində Vətənin keşiyində əzmlə dayandı. Silahların taktiki-texniki xüsusiyyətlərini böyük həvəslə öyrəndi. Atıcı silahlardan istifadə qaydalarını mənimsədi. Həqiqi hərbi xidmətini başa vuran Musa cəmi bir neçə ay sonra orduya geri döndü, Xüsusi Təyinatlı Qüvvələrdə hərbi qulluqçu kimi xidmətə başladı. Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovu özünə örnək bilən və güclü, iradəli bir gənc olan Musa xidmətə başladığı ilk gündən xüsusi hazırlıq kursu keçərək əsl döyüşçüyə çevrildi...

20 yaşlı mahir atıcı Musa Əsgərov Vətən müharibəsi başladığı ilk gündən torpaqlarımızın azadlığı, Azərbaycanımızın ərazi bütövlüyü uğrunda gedən döyüş əməliyyatlarında iştirak edərək, düşmənin xeyli sayda canlı qüvvəsini məhv edir. Cəsur döyüşçümüz ötən il oktyabrın 27-də Xocavənd rayonunun Qırmızı Bazar qəsəbəsi istiqamətində gedən ağır döyüşlərdə şəhadətə ucalır və 2020-ci il noyabrın 9-da Gəncə şəhərinin Şəhidlər xiyabanında dəfn edilir. Vətənə sonsuz sevgi, düşmənə hədsiz nifrət bəsləyən Musa Füzuli rayonundan başlayaraq Şuşa ətrafında gedən döyüşlərə qədər üzərinə düşən vəzifəni layiqincə yerinə yetirdi və şərəfli döyüş yolu keçdi. Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüş əməliyyatlarında şəxsi igidlik və şücaət göstərdiyinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamları ilə ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni ilə və "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Vətən uğrunda" və "Hərbi xidmətlərə görə" medalları ilə təltif edilib.

Vətən, bayraq sevdalısı olan Musanın böyüyüb boya-başa çatdığı evdə indi onun xatirəsinə yaradılan guşədə əşyaları, fotoşəkilləri səliqə ilə düzülüb, çox sevdiyi, əyninə geydiyi zaman qürur duyduğu XTQ-nin hərbi forması asılıb.

Şəhidin atası Rövşən Əsgərov bildirdi ki, Muşavaq kəndi Birinci Qarabağ müharibəsində üç şəhid verib: "Vətən müharibəsində də Musa şəhid oldu. Musa hər dəfə kəndə yolu düşəndə şəhidləri yad etmək üçün onların xatirəsinə tikilən bulağa gedərdi. Deyirdi ki, döyüş əmri verilərsə, onların qisasını yerdə qoymayacaq. O, verdiyi sözə əməl etdi. Şəhidlərimizin, erməni terrorunun qurbanı olan dinc insanlarımızın qisasını düşməndən aldı. Elin, obanın qeyrətini çəkən oğul idi. O mənə həm oğul, həm də ən yaxın dost idi. Bacı və qardaşının sevimlisi idi. Musa komandirlərinin, döyüşçü yoldaşlarının da sevgisini, hörmətini qazanmışdı. O, XTQ-nin ən gənc döyüşçülərindən biri idi. Döyüş yoldaşlarının onun haqqında söylədikləri, dəfələrlə yaralı yoldaşlarının həyatını xilas etməsi, qəhrəmanlıqları ilə qürur duyuram. Bu söhbətləri böyük fərəh hissi ilə dinləyirəm. Musa Vətənini o qədər sevirdi ki, onun uğrunda gözünü qırpmadan ölümə getdi... Nə qədər ki, Azərbaycanımız var, xalqımız, dövlətimiz var, Musa kimi igidlər də daim yaşayacaq".

Musanın kiçik qardaşı Famil Azərbaycan Ordusunun əsgəridir. O da qardaşı Musa kimi Vətənin keşiyində əzmlə dayanıb. Bacısı Səkinə isə dördüncü sinifdə oxuyur. Şəhid bacısı Musanın 20 Yanvar faciəsi, Xocalı soyqırımı və Aprel döyüşləri haqqında söylədiklərini heç vaxt unutmayacağını bildirdi.

Anası Hüsniyyə Əsgərova oğlunun əşyalarını toplayaraq evdə guşəsini özü yaratdığını dedi: "Musada Vətən sevgisi, hərbçi olmaq istəyi hələ məktəb vaxtlarından yaranmışdı. Qətiyyətli idi, elə ona görə də istəyinə nail oldu. Müharibə başladığı ilk gündən narahat olmayaq deyə, döyüş zonasından kənarda olduğunu deyirdi. Lakin sonradan döyüşçü yoldaşları bizə Musanın ən qızğın ərazilərdə, mövqelərdə dəfələrlə qəhrəmanlıqlar göstərdiyindən, öz vəzifə borcunu ləyaqətlə yerinə yetirdiyindən danışdılar. Bir şəhid anası kimi çox qürurluyam. Bu gün Musa tək mənim deyil, bütün Azərbaycan xalqının övladıdır. Ən böyük arzum övladımın adının əbədiləşdirilməsi və evdə yaratdığımız guşəni genişləndirərək, xatirəsinə muzey təşkil etməkdir".

İgid döyüşçümüzün valideynləri göstərilən diqqət və qayğıya, adının daima uca tutulmasına görə Azərbaycan Respublikasının Prezidentinə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildirdilər.

Komandirləri, döyüşçü yoldaşları şəhidimizin yüksək hazırlıqlı, vətənpərvər bir əsgər olduğunu dedilər.

Zabit Gündüz Səfərli bildirdi ki, Musa Əsgərovun Cocuq Mərcanlıdan başlanan döyüş yolu Füzuli, Cəbrayıl, Hadrut, Xocavənd rayonunun Qırmızı Bazar ərazisinədək davam edib. "Musanın müşahidə etmək bacarığı çox güclü idi. O, döyüş tapşırığını ən yüksək səviyyədə yerinə yetirdi. Musanın adı qəlbimizdə daim yaşayacaq, xatirəsi hər zaman əziz tutulacaq", - zabit dedi.

Vətən müharibəsi qazisi Füzuli Zeynalov yetirmələrinin sırasında ən gəncin Musa olduğunu söylədi: "Musa gənc olmasına baxmayaraq çox bacarıqlı, fiziki cəhətdən möhkəm, hazırlıqlı idi. O, sərrast atıcı olub. Öz üzərində daim çalışan əsgər idi. İstəyirdi ki, kursda ən yüksək nəticələri o qazansın və buna da nail olurdu. Döyüşlərə gəlincə isə, düşmənə qarşı amansız idi. Hər qarış torpağımız uğrunda igidliklə vuruşdu. Onun xatirəsini həmişə yad edəcəyik".

Döyüşçü yoldaşı gizir Elnur Xanızadə Musa kimi Vətənin mərd oğulları ilə hər zaman fəxr etdiyini dedi.

Vətənin igid oğlu Musa ilə bütün el-oba fəxr edir. Onun dastanlara dönən şərəfli ömrü və döyüş yolu haqqında hələ çox yazılacaq, çox danışılacaq.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

## "Azərbaycanın Qarabağ Zəfəri İqtisadi Əməkdaşlıq Təşkilatının fəaliyyətini canlandırıb"

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Azərbaycan Ordusunun 44 gündə qazandığı rəşadətli Qələbə ölkəmizin beynəlxalq aləmdəki nüfuzunu və mövqelərini zirvələrə yüksəldib. Azərbaycan bu tarixi Qələbədən sonra istər ikitərəfli və üçtərəfli münasibətlərdə, istərsə də beynəlxalq platformalarda tamam fərqli münasibətlə qarşı-qarşıyadır. İndi tərəflər Azərbaycanın bütün sahələrdəki gücünü görür, yüksək dəyərləndirir və bununla hesablaşırlar.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında ehtiyatda olan türkiyəli general Yücel Karauz bildirib.

Azərbaycanın Qarabağ Zəfərinin noyabrın 28-də Türkmənistanın paytaxtı Aşqabad şəhərində keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) XV Zirvə Toplantısının böyük uğurla başa çatmasına birbaşa təsir göstərdiyini, eləcə də İƏT-in fəaliyyətini canlandıran amil olduğunu diqqətə çatdıran general Yücel Karauz deyib: "Prezident İlham Əliyev böyük müdrikliklə regionda tamamilə yeni əməkdaşlıq mühiti yaradıb. İndi hər kəs regiondakı sülh və inkişaf platformasına qatılmaqda və bundan bəhrələnməkdə maraqlıdır. Cəmi doqquz ay müddətində Füzuli Beynəlxalq Hava Limanı kimi strateji əhəmiyyətli obyekti tikdirməyi bacaran Azərbaycanın təqdim və təklif etdiyi bütün infrastruktur layihələr beynəlxalq əhəmiyyət daşıyır və cəlbedicidir. Bir neçə gün əvvəl Soçidə keçirilən üçtərəfli görüş və onun nəticələri də təsdiq edir ki, bütün tərəflər regionda yaranan yeni vəziyyətlə hesablaşaraq qərarlarını ona uyğun vermək məcburiyyətindədirlər".

*Medallı igidlərimiz*

# Səngərlər Zəfər yolunun başlanğıcı idi

***Vətən müharibəsində xalqımız yumruq kimi birləşərək düşmənə sarsıdıcı zərbələr vurdu. Arxa cəbhədəkilər isə döyüşçülərimizə dayaq durdular. Yaşından, vəzifəsindən asılı olmayaraq, hər kəs üzərinə düşən tapşırıqları yerinə yetirdi. Buna görə də erməni işğalçılarına qalib gəldik, onları döyüş meydanlarında diz çökdürüb yurdumuzdan qovduq.***



İkinci Qarabağ müharibəsində erməni işğalçılarına qarşı vuruşan oğullarımızdan biri də müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Hüseyn Cabiroğludur. O, Vətən müharibəsinin ilk günlərindən sonadək yurdumuzun azadlığı uğrunda vuruşub. Döyüşlərdə göstərdiyi igidliyə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamları ilə "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medallarına layiq görülüb.

Hüseyn 8 iyun 1996-cı ildə Beyləqan rayonunun Aşıqlı kəndində anadan olub. O, orta məktəbi bitirəndən sonra ali təhsil almaq üçün Türkiyəyə üz tutub. Karabürk Universitetinə qəbul olub. 18 yaşı tamam olanda təhsilini yarımçıq qoyaraq Vətənə dönüb və ordu sıralarına yollanıb. Əsgəri xidmətini başa vurandan sonra həyatını orduya bağlayıb. Kursu uğurla bitirərək 2019-cu ildən müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmətdə ilk addımlarını atıb. 27 sentyabr 2020-ci ildə başlanan Vətən müharibəsində iştirak edib.

- Biz əks-hücum əməliyyatlarına Füzuli rayonunun Zovcuq qəsəbəsi istiqamətindən cəlb olunduq, - Hüseyn Cabiroğlu keçdiyi şərəfli döyüş yolundan söz açdı. - Qısa müddət ərzində Alxanlı, Yuxarı Qərvənd kəndlərini erməni işğalçılarından azad etdik. Bir neçə gündən sonra Cəbrayıl rayonu uğrunda döyüşməyə başladıq. Artilleriyaçılarımız sarsıdıcı zərbələrlə qəsbkarları Quyucaq, Daşkəsən kəndlərindən çıxartdılar. Daha sonra isə Xocavənd istiqamətində döyüşdük. Atılan hər mərmi düşməni qorxuya salır, bizi Zəfərə aparırdı. Uzun illər Böyük Qələbənin arzusuyla torpağın bağrına çəkilən səngərlərdə Ali Baş Komandanın əmrini gözləmişdik. Bilirdik ki, müvəqqəti dayandığımız səngərlər Zəfər yolunun başlanğıcıdı. Şükürlər olsun ki, Vətən müharibəsi qələbə ilə başa çatdı. Ordumuz düşmənə sarsıdıcı zərbələr vuraraq onu məğlub etdi, qəhrəmanlıq tariximizə şərəfli səhifələr yazdı. Qürur duyuram ki, mən də bu oğullardan biri oldum.

Cəsur döyüşçü Hüseyn Cabiroğlu ailələdir. Övladları da, yaxınları da həmişə onunla fəxr edəcəklər. Çünki o Vətən uğrunda vuruşan və Ali Baş Komandan tərəfindən medallarla təltif olunan oğullarımızdan biridir.

**Vahid MƏHƏRRƏMOV**
**"Azərbaycan Ordusu"**

*Analitik şərh*

# Vətən müharibəsinin regionda yaratdığı yeni geosiyasi reallıqlar

*Xəzər dənizilə Qara dənizin, o cümlədən Türkiyə, Rusiya və İran dövlətləri arasında yerləşən Cənubi Qafqaz regionu beynəlxalq münasibətlər sisteminə əsaslı təsir göstərən, yeni geosiyasi reallıqlar yaradan əlverişli coğrafi mövqeyə malikdir. Geopolitik reallıq Cənubi Qafqazı Şərq-Qərb və Şimal-Cənub dəhlizinə çevirdiyindən bu region daim böyük güclərin diqqət mərkəzində olub.*



ABŞ Dövlət Departamentinin 1994-cü ildə hazırladığı "Qafqaz Regionu" xəritəsi, 1997-ci ildə nəşr olunan Yeni əsr üçün Milli Təhlükəsizlik Strategiyası, Rusiya da daxil olmaqla dünyanın aparıcı dövlətlərinin sərgilədiyi mövqelər də sübut edir ki, region dünyanın siyasi xəritəsində xüsusi mövqeyə malikdir. Bir sözlə, Cənubi Qafqaz siyasi, strateji, tarixi və sosioloji aspektləri ilə son dərəcə mühüm regiondur. Təkcə coğrafi mənada deyil, həm də sosioloji baxımdan bu bölgədə cərəyan edən hadisələr bir çox səbəblərdən region və regionda siyasi marağı olan dövlətlərə təsir edir. Qafqaz dövlətləri arasında əlaqələr, böyük dövlətlərin regionla bağlı siyasətləri və beynəlxalq aləmdə baş verən proseslər; regional təhlükəsizliyə, sabitliyə və rifaha ciddi təsir göstərir. XIX əsrdə Rusiyanın işğalı altında olan bu bölgədə XX əsrin əvvəllərində üç müstəqil respublika - Gürcüstan, Azərbaycan və Ermənistan yarandı. Qeyd edək ki, regionda müstəqil Ermənistan respublikasının yaranması çar Rusiyasının siyasi maraqlarının nəticəsi idi. Ermənilərin XIX əsrdə məqsədli şəkildə regiona köçürülməsi regionu yeni geosiyasi reallıqla üz-üzə qoydu. Nəticədə bütün regionda sülh və təhlükəsizlik üçün olduqca ciddi təhlükə mənbəyi yaranmış oldu.

XX əsrin əvvəllərində region dövlətləri müstəqillik əldə etsələr də, dövlətlərin suverenliyi uzun sürmədi, region Sovetlər hakimiyyəti tərəfindən işğal edildi. İstər müstəqillik dövründə, istərsə də sonrakı mərhələlərdə qonşu dövlətlərin torpaqlarını işğal edərək ekspansiya siyasətinə üz tutan Ermənistan müxtəlif tarixi proseslərdə fürsət tapdıqca Azərbaycandan torpaq qoparıb öz sərhədlərinə daxil etdi. 70 il xüsusilə regionda şəriksiz güc mərkəzinə çevrilən Sovetlər İttifaqının ən güclü dövləti olan Rusiya XX əsrin sonlarında region dövlətləri yenidən müstəqilliklərinə qovuşduqdan sonra da regionun siyasi reallığının formalaşmasında birbaşa rol oynadı. Rusiya region siyasətinin konturlarını cızarkən bölgə dövlətlərinə münasibətdə konkret və xüsusi yanaşma strategiyasını həyata keçirməyə səy göstərdi. Belə yanaşma tərzi son nəticədə Azərbaycan, Gürcüstan və Ermənistanla Kreml tərəfdən müxtəlif müstəvilərdə və müxtəlif statuslarda davranılmasını şərtləndirdi.

Azərbaycanda sovet hökmranlığı qurulduqdan sonra ermənilərə Qarabağın dağlıq bölgəsində muxtariyyət verildi. Lakin Ermənistan bununla kifayətlənməyərək hər fürsətdə Azərbaycana qarşı ərazi iddialarını gündəmə gətirdi. SSRİ-nin dağılması zamanı yenidən hərəkətə keçən Ermənistan bu dəfə silahlı üsula əl ataraq, müharibə yolu ilə Azərbaycan torpaqlarının təxminən 20 faizini işğal etdi. Ermənistan Azərbaycanın digər bölgələrinə qarşı yeni hücumlar həyata keçirməklə yanaşı, problemin sülh yolu ilə həlli üçün hər cür təklifləri geri çevirirdi. Ermənistan ordusunun 2020-ci ildəki təxribatları və bu kontekstdə həyata keçirdiyi yeni hücumlar İkinci Qarabağ müharibəsinin qaçılmaz olduğunu ortaya qoydu.

Aprel döyüşlərindən, Tovuz hadisələrindən sonra Ermənistan silahlı birləşmələri 2020-ci il sentyabrın 27-də səhər saatlarında Azərbaycan torpaqlarında yeni ərazilər işğal etmək məqsədilə hücuma keçdi. Buna cavab olaraq əks-hücuma başlayan Azərbaycan Ordusu uğurlu hərbi əməliyyat nəticəsində mühüm mövqeləri azad edərək öz nəzarəti altında saxlamaqla irəliləməyə nail oldu. Azərbaycan Ordusunun Ermənistanın hücumlarına qarşı əks-hücumu 44 gün davam etdi. Bu müharibədə böyük məğlubiyyətə uğrayan Ermənistan ordusu, nəhayət, Rusiya-Azərbaycan-Ermənistan tərəfindən imzalanan üçtərəfli Bəyannaməyə uyğun olaraq təslimiyyəti qəbul etdi və Azərbaycan ərazilərindən geri çəkildi. Döyüşlərin bu istiqamətdə gedəcəyini düşünməyən düşmən aldığı zərbələrdən sarsıldı. İlk döyüşlərdə xeyli miqdarda hava hücumundan müdafiə sistemi məhv edildi. Ermənistan ordusu Azərbaycan Ordusunun pilotsuz uçuş aparatları və helikopterlərinin uğurlu zərbələri nəticəsində böyük itki verərək mühüm mövqeləri tərk etməli oldu.

Azərbaycan Ordusu tarixi torpaqlarını işğaldan azad etdikcə strateji mövqelərə və yollara da nəzarətə nail olurdu. Qeyd edək ki, müharibənin gedişində Azərbaycan Ordusu beynəlxalq hüquq normalarının tələblərinə əməl edərək mülki erməni əhalisinə qarşı çox ehtiyatlı davranır, erməni silahlı birləşmələri isə əksinə, Azərbaycana məxsus mülki yaşayış məntəqələrini hədəfə alırdı. Döyüş meydanında ciddi məğlubiyyətə uğrayan Ermənistan beynəlxalq təşkilatlara və böyük dövlətlərə yalvarırdı ki, məsələyə seyrçi mövqeyində qalmasınlar, gedişata müdaxilə etsinlər. Münaqişə tərəflərinə təqdim olunan atəşkəs təkliflərinə cavab olaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev vurğulayırdı ki, Ermənistan ordusu Azərbaycan torpaqlarını qeyd-şərtsiz tamamilə tərk etsə və Paşinyan administrasiyası vədlərinə əməl etsə, Azərbaycan hökuməti danışıqlara başlaya bilər.

2020-ci ilin ən mühüm hadisəsi, şübhəsiz ki, Azərbaycanın işğal altında olan torpaqlarının azad edilməsi əməliyyatı oldu. 44 günlük müharibə Azərbaycanın tam qələbəsi və Ermənistanın kapitulyasiyası ilə nəticələndi. Düşmənin əksər texnikası məhv edildi, canlı qüvvəsinə ciddi zərbə vuruldu. Ermənistan ordusu darmadağın edildi və artıq vahid komandanlığı olmayan, müqavimət qabiliyyətini itirən, başıpozuq dəstələri xatırladtı. Azərbaycan Qarabağın incisi olan Şuşa şəhərini, onun ardınca bir gündə 70-dən artıq kəndi, 8 strateji yüksəkliyi azad etməklə, Ermənistanı diz çökdürdü və kapitulyasiyaya məcbur etdi. 30 ildir danışıqlar prosesində Ermənistan nail olmaq istədiklərinin heç birini əldə edə bilmədi, Dağlıq Qarabağın statusunun müəyyən edilməsi məsələsi tarixin arxivinə getdi, Qarabağda yeni ikinci erməni dövlətinin yaradılması planları pozuldu, erməni xülyasına son qoyuldu.

Nəticə odur ki, Qarabağa heç bir status verilmir. "Dağlıq Qarabağ Muxtar Vilayəti" adlı ərazi yoxdur, tamamilə süquta uğrayıb. Qarabağın bütün rayonları digər rayonlarımız kimi Azərbaycanın tərkibində olan ayrılmaz ərazimizdir. Ermənistan özünün məğlub və darmadağın olmuş silahlı qüvvələrinin qalıqlarını çıxarmaq öhdəliyini götürdüyünə görə silahlı qüvvələrin vəzifəsi oradakı hər hansı insidentin qarşısını almaq olacaq. Azərbaycandan Naxçıvana nəqliyyat dəhlizinin açılması nəinki region, o cümlədən dünya dövlətləri üçün böyük strateji əhəmiyyətə malikdir. Artıq Azərbaycan dövləti işğaldan azad olunan bölgələrimizin inkişafı istiqamətində kifayət qədər nəhəng layihələrin icrasına başlayıb, kommunikasiya və s. imkanları genişləndirib.

İkinci Qarabağ müharibəsinin nəticəsi Qafqazın yeni geosiyasi vəziyyətinin formalaşmasında mühüm mərhələ oldu. Nəticədə, Qafqazın keçmişi ilə gələcəyi arasında köklü dəyişiklik baş verdi. Regional güc dəyişikliyi və Qafqazda yeni geosiyasi reallıq, qlobal və regional güclər tərəfindən qəbul edilib. Rusiya və Türkiyə prezidentlərinin məsələyə münasibəti, beynəlxalq hüquq normalarına uyğun olaraq Azərbaycanın ərazi bütövlüyünün təmin olunması istiqamətində atılan addımlar, regionda digər güclərin maraqlarına uyğun olaraq edilən siyasi gedişlər onu göstərdi ki, bölgədə digər qlobal və regional oyunçuların effektivliyi azalıb. 10 noyabr kapitulyasiya aktının imzalanmasından sonra siyasi proseslərə seyrçi mövqeyində qalmaq məcburiyyətində olan dövlətlər və güc mərkəzləri bu vəziyyətdən çox narahat olduqlarını açıq şəkildə bəyan edirlər. Bəzi təşkilatların fəaliyyətinin əhəmiyyətsiz olduğunu anlayan böyük güclər bu məsələyə bu və ya digər şəkildə reaksiya verməyə çalışır. Ancaq dünya dövlətləri də, region dövlətləri də yaxşı başa düşür ki, artıq regionun gələcək nicatı bölgədə yaranacaq daimi sabitlikdən asılıdır.

**Mayor**
**Məhəmməd ƏLİYEV**
**Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində baş müəllim**

## "Bizim mövqeyimiz bundan ibarət idi ki, Azərbaycanın ərazi bütövlüyü təmin olunmalıdır"

Qarabağ məsələsinə münasibətdə İran İslam Respublikasının mövqeyi şəffaf və birmənalı idi. İranda İslam inqilabının ali rəhbərindən tutmuş, dövlət strukturlarındakı bütün məmurların hamısının mövqeyi bundan ibarət idi ki, Azərbaycan Respublikasının ərazi bütövlüyünə xələl gətirilməməlidir və Azərbaycan Respublikasının ərazi bütövlüyü təmin olunmalıdır.

AZƏRTAC xəbər verir ki, bu barədə İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə görüşdə bildirib.

"Biz əminik ki, Azərbaycan Respublikasının Baş nazirinin müavininin və Azərbaycan Respublikasının xarici işlər nazirinin iranlı həmkarları ilə apardıqları danışıqlar, müzakirələr ölkələrimizin münasibətlərini daha da dərinləşdirəcək, irəliyə aparacaq və əlaqələrimiz möhkəmlənəcək", - deyə Seyid İbrahim Rəisi vurğulayıb.

## Minaatan və artilleriya bölmələrinin döyüş atışlı taktiki təlimləri keçirilib

*2021-ci ilin döyüş hazırlığı planına uyğun olaraq Azərbaycan Ordusunda minaatan və artilleriya bölmələri ilə döyüş atışlı taktiki təlimlər keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, hərbi hissələrin çöl çıxışları dövründə keçirilən döyüş atışlı taktiki təlimlərdə bölmələrin komanda müşahidə məntəqəsinin açılması və atəş mövqeyini tutması tapşırıqları icra olunub.

Vətən müharibəsində əldə edilən təcrübələr nəzərə alınaraq keçirilən döyüş atışlı taktiki təlimlərdə əsas məqsəd atəş vasitələrindən düzgün istifadə etməklə tapşırıqların vaxtında və dəqiq icra edilməsi üçün şəxsi heyətin praktiki vərdişlərinin artırılması, eləcə də komandir heyətinin bölmələri idarəetmə bacarıqlarının təkmilləşdirilməsidir.

Minaatan və artilleriya vasitələri tələb olunan vaxt çərçivəsində atəş vəziyyətinə gətirilib, planlı və plandankənar hədəflərə döyüş atışları yerinə yetirilib.

Qarşıya qoyulan tapşırıqlar müvəffəqiyyətlə icra olunub.

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)

**Mövzu:** Hərbi qulluqçuların tərbiyəsində azərbaycançılığın və vətənpərvərliyin rolu.

**Suallar:**

**1. Azərbaycançılıq - hərbi qulluqçularda dövlətçilik duyğusunun güclənməsinə, güclü ordunun formalaşmasına, müstəqilliyin qorunmasına, demokratik inkişafa, hüquqi və sosial dövlətin qurulmasına xidmət edir.**

**2. Vətənpərvərlik Vətənə sevgi və sədaqəti ifadə edir.**

### Azərbaycançılıq - hərbi qulluqçularda dövlətçilik duyğusunun güclənməsinə, güclü ordunun formalaşmasına, müstəqilliyin qorunmasına, demokratik inkişafa, hüquqi və sosial dövlətin qurulmasına xidmət edir

Azərbaycançılıq müstəqil, suveren Azərbaycanın istiqlalını və bu ölkədə dünyəvi prinsiplərə malik sivil demokratik dövlət uğrunda mübarizəni strateji məqsəd seçən Azərbaycan xalqının ideologiyasıdır. Onun əsasında Azərbaycanı özünə Vətən sayan bütün xalqların milli, etnik, dini və sosial hüquqlarının bərabərliyi ideyası dayanır.

Azərbaycançılıq milli dövlət ideologiyası kimi, Azərbaycan Respublikasının Konstitusiya əsaslarına söykənən, Azərbaycanın müstəqilliyinə, onun hüquqi və demokratik dövlət kimi inkişafına və milli təhlükəsizliyinin qorunmasına xidmət edən dəyərlər sistemidir.

Azərbaycançılığın bütün dünya azərbaycanlılarını birləşdirən ideologiya halına gəlməsi, müstəqil Azərbaycan dövlətinin ideya əsasına çevrilməsi Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin tarixi xidmətidir. Ümummilli lider Heydər Əliyev hələ sovet dövründə Azərbaycan Respublikasına rəhbərlik edərkən azərbaycançılıq məfkurəsinin bütün həmvətənlərimiz arasında yayılmasına, bu ideyanın geniş ictimai dəyər qazanmasına çalışırdı və respublikamızdan kənarda yaşayan azərbaycanlıların təşkilatlanmasını, diasporların təşəkkül tapmasını vacib sayırdı.

Azərbaycan tarixən müxtəlif millətlərin dinc yanaşı yaşadığı, milli və dini tolerantlığın bərqərar olduğu ölkə olub. Burada hər bir xalqın və millətin nümayəndəsinə bərabər münasibət göstərilib. Çoxmillətli Azərbaycan xalqını birləşdirən azərbaycançılıq ideyası müstəqilliyin qorunmasına, demokratik inkişafa və hüquqi, sosial dövlətin qurulmasına xidmət edir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev 1993-cü il iyunun 15-də Azərbaycan parlamentindəki çıxışında demişdir: "Azərbaycan ərazisində olan hər bir vətəndaş milliyyətindən, dinindən, siyasi mənsubiyyətindən asılı olmayaraq eyni hüquqa malik olmalıdır. Əgər biz bunu əməli surətdə həyata keçirə bilsək, Azərbaycan Respublikasında olan bütün xalqların, bütün millətlərin tam birləşməsini təmin edə bilərik". Bununla ümummilli lider Heydər Əliyev Azərbaycanda hakimiyyətin mövqeyini əks etdirən azərbaycançılıq ideyasının əsaslarını bəyan etmişdir. Lakin azərbaycançılıq Azərbaycanda yaşayan xalqın həmrəyliyi ilə məhdudlaşmır. Azərbaycançılıq milli-mənəvi varlığın ilkin əlamətlərini, xalqın kimliyini əks etdirən, milli təfəkkürünü birləşdirən dəyərlər sistemidr. Bu dəyərləri cəmləşdirən dil, ərazi, vətəndaşlıq, adət-ənənə və ideoloji birlik azərbaycançılıq ideologiyasının əhatə dairəsini sərhədsiz edir. Azərbaycandan kənarda yaşayan soydaşlarımızla yanaşı, milliyyətindən asılı olmayaraq Azərbaycanın müstəqilliyini, birliyini və hüquqi, demokratik dövlət kimi inkişafını arzulayan hər bir şəxs azərbaycançılıq ideologiyasının daşıyıcısıdır.

Azərbaycançılıq siyasi anlayış olaraq ümumbəşəri dövlətçilik, vətəndaşlıq, vətənpərvərlik, yüksək keyfiyyətli insani və dini dəyərləri özündə birləşdirir. Azərbaycançılıq ideologiyasının daşıyıcısı olan vətəndaşların milli vətənpərvərlik mövqeyi dövlət və ordu quruculuğu prosesinin əsas vacib elementlərindən biridir.

Azərbaycan Ordusunda azərbaycançılıq - Azərbaycan Respublikasının çoxmillətli vətəndaşlarını təmsil edən hərbi qulluqçuların Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı və Azərbaycan xalqı ətrafında sıx birləşməsinə zəmin yaradan dəyərlər sistemi olaraq, dövlətin milli təhlükəsizliyinə qarşı yönələn hərbi təhdidlərin qarşısının vaxtında alınması və ölkənin müdafiə qüdrətinin artırılmasını, regionda ən güclü ordunun yaradılmasını nəzərdə tutur. Qüdrətli Azərbaycan dövlətinin qurulması, güclü Azərbaycan Ordusunun yaradılması Azərbaycan Ordusunun hərbi qulluqçularının və dünya azərbaycanlılarının ortaq hədəfi kimi azərbaycançılıq ideologiyasının təməl müddəalarını təşkil edir.

Azərbaycan Ordusunda azərbaycançılıq ideyasının daşıyıcı qüvvəsi hərbi qulluqçular olduğu üçün hər bir hərbi qulluqçu azərbaycançılığı, Azərbaycan dilini, mədəniyyətini, onun milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmaq və qoruyub-saxlamaq üçün daim çalışmalıdır. Azərbaycan dövlətçiliyinin qorunması uğrunda mübarizə hissləri daim hərbi qulluqçuların qəlbində yaşamalıdır. Azərbaycançılığın bərqərar olması ilə yaşayan güclü Azərbaycan Ordusu və onun şəxsi heyəti Azərbaycan Respublikasının müstəqilliyinin və suverenliyinin qorunub saxlanılmasının qarantıdır.

Azərbaycançılıq - Azərbaycan cəmiyyətinin qoruyucu qüvvəsi olan Azərbaycan Ordusunun şəxsi heyətini Azərbaycan Respublikasının müdafiə qüdrətinin gücləndirilməsinə, ölkənin hərbi təhlükəsizliyinin təmin edilməsinə, müasir döyüşlərdə silahlı mübarizənin üsul və qaydalarının öyrənilməsinə, şəxsi peşəkarlıq, bilik və bacarıq səviyyələrini artırmalarına, hərbi hissə və bölmələrin döyüş qabiliyyətlərinin və hərbi intizamının yüksəldilməsinə, komandirlər (rəislər) tərəfindən verilən tapşırıqların vaxtında, dəqiq və sözsüz yerinə yetirilməsinə, müxtəlif çöl, hava və dəniz şərtlərinə müvafiq olaraq döyüş vərdişlərinin tərbiyə edilməsi və təkmilləşdirilməsi kimi tapşırıqların yerinə yetirilməsinə səfərbər edir.

Azərbaycan Ordusunda azərbaycançılığın əsas vəzifələri aşağıdakılardan ibarətdir:

- hərbi qulluqçuların dövlət və ordu quruculuğu işində fəal iştirakının təmin edilməsi və vahid komandanlıq prinsipinin möhkəmləndirilməsi üçün əlindən gələnləri əsirgəməməsi;
- hərbi hissə və bölmələrin döyüş və mənəvi-psixoloji hazırlıq səviyyəsinin qaldırılması, hərbi kollektivlərdə hərbi intizamın və qayda-qanunun tələb edilən səviyyədə saxlanılması;
- komandir (rəis) heyətinin və hərbi xidmətin nüfuz səviyyəsinin qaldırılması;
- hərbi qulluqçuların icraçılıq qabiliyyətlərinin artırılması;
- hərbi qulluqçuların Vətənə sədaqət, Azərbaycan xalqının adət-ənənələrinə və böyüklərə (rəislərə) hörmət ruhunda tərbiyə edilməsi;
- hərbi xidmət keçən bütün xalqların, etnik qrupların, müxtəlif səmavi dinlərin və dini təriqətlərin nümayəndələri olan hərbi qulluqçuların ümumdövlət mənafeləri və dəyərləri əsasında birləşdirilməsi;
- hərbi qulluqçularda öz milli mənsubiyyətinə görə qürur hissinin aşılanması, Azərbaycan dilinə, mədəniyyətinə, Azərbaycanda yaşayan xalqların milli-mənəvi dəyərlərinə və adət-ənənələrinə hörmətlə yanaşma tərzinin sərgilənməsi;
- hərbi qulluqçulara yüksək mənəvi-psixoloji keyfiyyətlərin aşılanması;
- hərbi qulluqçuların həyat və sağlamlığının qorunması.

### Vətənpərvərlik Vətənə sevgi və sədaqəti ifadə edir

Vətəndaşlıq azərbaycançılığın əsas elementlərindən biri olaraq, ölkədə şəxsin hüquqi vəziyyəti ilə bərabər onun ictimai-siyasi münasibətlərə mövqeyini əks etdirən psixoloji vəziyyətidir. Vətəndaşlıq mövqeyindən hər bir şəxs vətənpərvərlik ruhunda tərbiyə olunmalıdır. Vətəndaşlıq fərdin öz dövlətinə münasibətini təcəssüm etdirir, vətənpərvərlik isə insanın öz ailəsinə, Vətəninə, torpağına hərtərəfli bağlılığının göstəricisidir. Vətənpərvərlik mahiyyəti Vətənə məhəbbət, öz şəxsi maraqlarını Vətən yolunda qurban verməyə əsaslanan emosional bağlılıqdır. Bu bağlılıq həm də özünün mənsub olduğu millətin etnik, mədəni, siyasi və tarixi xüsusiyyətlərinə arxalanan milli hissiyyat və ya milli qürur kimi də hallanır. Burada Vətənini, xarakterini və mədəni incilərini qorumaq, özünü bu keyfiyyətlərlə millətin başqa üzvləri ilə tanımaq, Vətəninin və öz xalqının marağını qorumaq da vətənpərvərlik keyfiyyətlərinə aiddir. Hərbi qulluqçuların vətənpərvərlik ruhunda tərbiyə olunması milli təhlükəsizlik baxımından əhəmiyyətlidir.

Vətənpərvərliyin tarixi kökündə min illər boyu yaşayan, möhkəmlənən, öz ana torpağına, dilinə və adət-ənənələrinə bağlanan dövlətçilik durur. Vətənpərvərlik və dövlətçilik azərbaycançılıq ideologiyasının əsasını təşkil edir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev milli ideologiya barədə çıxışlarının birində bu fikri aydın şəkildə ifadə etmişdir: "Milli ideologiya nədən ibarətdir? Birinci, dövlətçilik. Dövlətçilik bu gün və gələcəkdə bizim hər bir vətəndaşımızın, cəmiyyətin, dövlətin əsas vəzifəsidir. Dövlətçilik Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü qoruyub saxlamaqdır. Azərbaycanın müstəqilliyini möhkəmləndirməkdir. Dövlətçilik hər bir vətəndaşın qəlbində olmalıdır. Ona görə hər bir vətəndaş vətənpərvərlik hissləri ilə yaşamalıdır".

Vətənpərvərlik ideyası dövlət müstəqilliyinin sütununu təşkil edir. Öz xalqının əldə etdiyi suverenliyi, dövlət müstəqilliyini qorumaq vətənpərvər insanın ali məramıdır. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev çıxışlarının birində bildirmişdir: "Müstəqilliyi elan etmək hər bir xalq üçün, hər bir ölkə üçün tarixi hadisədir, böyük xoşbəxtlikdir. Amma müstəqilliyi yaşatmaq, onu dönməz etmək, sarsılmaz etmək bundan da böyük vəzifədir, çətin vəzifədir, bundan da böyük xoşbəxtlikdir. Mən bu gün iftixar hissi ilə bəyan edirəm ki, Azərbaycanda müstəqil dövlət yaşayır və onun gələcəyi üçün də böyük təməl qoyulubdur. Bizim vəzifəmiz qarşıdakı dövrdə Azərbaycanın müstəqilliyini qoruyub saxlamaqdır".

Özünü ölkəsinin əsl vətəndaşı hesab edən hər bir ləyaqətli, iradəli, əqidəli, vətənpərvər gənc millətin adı və varlığı ilə fəxr edir, onda milli xarakter və milli mənəviyyat formalaşır. Çünki milli mənlikdə milli ideal, milli ləyaqət, milli şərəf, milli birlik hissi, azadlıq, müstəqillik arzuları, milli qürur hissi təcəssüm olunur. Milli mənlik hər bir şəxsin özünün milli mənsubiyyətini ətraflı dərk etməsinə imkan yaradır. Milli mənliyi olan şəxs Vətənlə bağlı heç bir hadisəyə laqeyd qala bilməz. Ona görə ki, Vətən, torpaq məhəbbəti millətin və xalqın qayğıları onun şəxsi istək və arzularını üstələyir, onu xalq üçün çalışmağa sövq edir.

Azərbaycan xalqı gələcəyimiz olan gənc nəslin Vətənə məhəbbət, xalqa, elinə və obasına hörmət, soykökünə, öz ata-babalarının ənənələrinə sədaqət ruhunda tərbiyə olunmasına həmişə böyük məsuliyyətlə yanaşıbdır. Vətənpərvərlik insanda fədakarlıq, qəhrəmanlıq və məğlubedilməzlik hissi yaradır, apardığı mübarizədə onda inam hissini gücləndirir. Vətənpərvərlik qəhrəmanlığın əsasını qoyan amildir. Biz şanlı tariximizlə, əfsanəvi qəhrəmanlarımızla həmişə fəxr etmişik. Günümüzdə də fəxr etməyə, öyünməyə haqqı çatan qəhrəmanlarımız var. Yaşadığımız tarix, apardığımız mübarizələr və bu mübarizələrdən alnıaçıq, üzüağ çıxmağımız deməyə əsas verir ki, Azərbaycan xalqı qəhrəman xalqdır. İnsanın ən ali və əzəli hisslərindən olan vətənpərvərlik hər kəsin doğulub boya-başa çatdığı elə, obaya, torpağa, vətəndaşı olduğu ölkəyə məhəbbətdən qaynaqlanır. Lakin vətənpərvərlik təkcə Vətəni sevmək deyildir. Vətənpərvərlik həm də Vətənin naminə çalışmaq, Vətəni qorumağa hər an hazır olmaq, onun yolunda qəhrəmanlıqlar, fədakarlıqlar göstərmək, Vətənin, xalqın hər bir uğuruna sevinməkdir.

Ərazi bütövlüyünün bərpa edilməsi, ölkəmizin məruz qaldığı işğala son qoyulması məqsədilə 27 sentyabr 2020-ci ildə "Dəmir yumruq" əməliyyatı ilə başlanan Vətən müharibəsində Azərbaycan Silahlı Qüvvələrinin igid və cəsur əsgərlərinin Vətəni yolunda göstərdikləri qəhrəmanlıqlar Azərbaycan xalqının nə qədər vətənpərvər olduğunu bir daha nümayiş etdirdi. Atəşkəsdən sonra müşahidə olunan ən gərgin və uzunmüddətli döyüşdə neçə-neçə igid oğullar Vətən yolunda canlarını qurban verdilər. Ermənistan ordusunun döyüş aktivliyinin qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan Ordusunun əsgərləri canlı sipər çəkərək qələbəni təmin etdilər. Erməni qəsbkarlarına qarşı ölüm-dirim savaşında həlak olan qəhrəmanlarımızın ibrətamiz həyatı, şəxsi nümunəsi Azərbaycan xalqının tarix yazan xalq olmasının bariz nümunəsidir.

Ümummilli liderimiz Heydər Əliyevin milli dövlətçilik, vətənpərvərlik ideyaları bugünkü inkişafımızın təməlini təşkil edir. Ulu Öndərin milli şüur - vətənpərvərlik şüuruna elmi yanaşması xalqımızın vətənpərvərlik tərbiyəsində əvəzsiz nümunəyə çevrilib, vətəndaşlarımıza Vətən sevgisi aşılayıb. Vətən yalnız coğrafi ərazi deyil, harada yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlının şan-şöhrəti, qeyrəti, əyilməz vüqarı, qürur mənbəyi, bütün varlığı, taleyi, gücü, qüdrəti, əbədi səcdəgahıdır. Bugünkü müasir, müstəqil çiçəklənən Azərbaycan bütün varlığını, ömrünü, zəkasını xalqına, millətinə həsr edən ulu öndərimiz Heydər Əliyevin bizə ən müqəddəs, ən ülvi yadigarıdır.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

# Şuşaya aparan yol nə gözəldi!..

Ermənistan Azərbaycanda minlərlə uşağın uşaqlığını, yeniyetmənin yeniyetməliyini, minlərlə qocanın qocalığını işğal etsə də (erməniliyin əzablarını erməni uşaqları, erməni yeniyetmələri, erməni qocaları daha ağrılarla yaşayacaq, həm də illərlə...), heç birinin ruhuna, ruhunun əsgəri olan vətənpərvərliyinə yaxın düşə bilmədi; qadirlik ocaqdı - yad nəfsini, yad nəfəsini tanıyır, tanıdığına görə yandırıb külə döndərir. Təbiət də bu qadirliyin yedəkçisinə dönür - əsən yellər coşqudu, daşan sellər qəzəbdi. Bu coşqu, bu qəzəb 28 il zəngilanlıların da ümidinə ümid, inamına inam kimi bir qətiyyətin min illərlə yaşadılan kəsəri oldu: İşğalın ömrü vətənpərvərlik qılıncı sıyrılanacandı. Vətənpərvərlik qılıncı erməniliyin qollarını kəsdi, bir də tərpənsə, boynunu vuracaq...

İşğal sıxılcım deməkdi. Dərdinə dirsəklənənlər dərdin ağrı-acılarını həmişə ümidinin, güvəncinin tərcümanı olan bir bayatıyla yumşaldıb, zəngilanlılar da onların sırasında:

...dərdi dara,
Dərdi üz, dərdi dara ...
Ömrüm-günüm, üzüldük,
Çəksənə dərdi dara...

28 il gecələrini bu bayatıyla səhər eləyənlərin - dərdəcər anaların şükranlığını eşitməyə niyyətliyəm. Yurdunda ocaq çatan ana görüncə nəfəsimi nəfəsinə yetirəcəm, əllərindən öpəcəm, kövrəkliyini qılığa tutacam: "Dərd dara çəkildi, ay ana, oğullar dərd gətirəni dərdə saldı, erməniliyin murazı gözlərində qaldı...", - deyəcəm. Ana gözaltı göy üzünə baxacaq...

İşğal müddətində ermənilər gediş-gəlişlərini asanlaşdırmaq üçün Babaylı kəndinin üst tərəfindən saldığı yolla gedirik (ermənilər bu yolu - işğal niyyətinin tərkib hissəsi kimi salıb...). Bir xeyli aralıda təzə yol çəkilir. Bu yol işğaldan azad edilən rayonlarımızı bir-biriylə, hamısını Mərkəzlə rahatlıqla birləşdirəcək...

Babaylı kəndindəyik. Bir ömürün timsalında min ömürlərin göy üzünə çəkilən işığına gəlmişik. Bu işıq xatirə biçimli işıqdı, 28 il qaranlıqla mücadilə aparan işıqdı. Bu işığı göy üzündən Şəri zəbun edənlər endirib. Bu işığın evlərin daşına-divarına sarıldığını necə duymayasan?..

Yoldan o qədər də uzaqda olmayan bir tikili görünür. El arasında Günbəz kimi tanınan bu tikili neçə yüz illərin tikilisidi. Deyilənə görə, buradan itib-batan Şəhri-Şərifana yeraltı yol var (Şərifan və Şabran adları arasında bunca doğmalıq könlümü tellləndirir, düşüncələrimi tərpədir. Belə təsadüf olurmu?!). Başqa bir gümana görə burada övliya dəfn edilib. Hər iki halda, Günbəz tarixi abidədi. Uzaqdan Babaylı kəndinin nişanvericisinə bənzədirsən. Tarixini nəzərə alanda Babaylının Günbəzini də tarixin bələdçisi bilirsən...



Babaylının görkəmi könül qubarlandırır. Yaxınlaşdıqca ucalığı aydınlığıyla sezilən uçuq binanın məscid olduğunu az sonra biləcəm. İşğala qədər Qarabağda, ətraf rayonlarda 67 məscid olub. Ermənilər o məscidlərin 63-nü tamamilə dağıdıb, 4-nü yararsız hala salıb. Yararsız hala salınan məscidlərdən biri də Babaylıdadı. 1993-cü ilin noyabrından üzü bu yana azan səsi gəlməyən məscidin divar daşları da töküIüb. Görəsən, təmirə qədər duruş gətirə biləcəkmi? 28 il "Allahu-Əkbər" möcüzəsi bu kənddə də eşidilməyib; doğmaları yoxuydu, yadlar düşməniydi. İlk azan verilən gün bu məscid dünyaya yenidən gələcək...

Bir vaxtlar sobalarının tüstüsü göy üzünü pərdələyən - göy üzünün örpəyinə dönən Babaylıda ruhun ittihamı bildiyim bir sükut vurnuxmaqdadı. Bu sükut kənd yenidən qurulanacan, babaylılar Babaylıya qayıdanacan töyşüyəcək...

Babaylıda bircə salamat ev yoxdu, bircə qapı qalmayıb ki, döyəsən, ağrı-acını yumşaltmaq üçün ev yiyəsini səsləyəsən. 28 il kənd sükutun əsiri olub, sükut - işğalın. Sükut işğaldan qurtuldu, kənd sükutdan qurtulur, qurtulacaq.

Kəndi bu görkəmdə görəndə "Fəryad" bədii filmindən bir məqamı (görüntünü) xatırlayıram: balaca erməni Mamikonun təsadüfən yandırdığı evi əsir düşən azərbaycanlı (İsmayıl) söndürür. Bu görüntü azərbaycançılığın erməniliyə mənəvi ittihamıydı. Bəşərilik naminə fəcilərə səbəb olmasın deyə erməniliyin yandırdığını azərbaycançılıq söndürür. Ötən əsrin sonlarında erməniliyin yandırdığı işğal ocağını Azərbaycan Ordusu döyüşdə, döyüşlərdə söndürdü. Birdəfəlik söndürdü...

Yol yoldaşım (və iş yoldaşım) Vahidgilin evlərini ötüb keçmişik.

Vahid geri qayıdır. Mən də onunla dabanbasaraq...

Gözləri dolub-boşalır Vahidin. Çaşqınlıqla sağa baxır, sola baxır, arxaya baxır. Məscidi görəndə dayanır. Və dodaqlarını bir yanıqlı "ah" yandırır. "O Qasım dayının evidi. O İbrahim dayının evidi, yuxarıdakı ev Fərmanındı, bizim evimiz odu, odu bizim evimiz...", - pıçıldayır. Bu pıçıltıda bir gizilti də var, sızıltı da - ata yurdunun görkəminə görədi bu sızıltı, gizilti. Bu pıçıltı dünyanın üzqaralığının ifadəsidi...

Bu məqamlarda M.Şoloxovun "İnsanın taleyi" əsərini xatırlayıram. Vahidin hisslərini Sokolovun keçirdiyi hisslərin eyni bilirəm. Var səsimlə qışqırmaq istəyirəm: Ermənilik xisləti səbəbindən insan evini tapa bilmir, ay Allahını sevənlər! Düşmənin düşmənçiliyi onun kəndini, kəndin evlərini uçurub-dağıdıb, tanınmaz hala salıb...

Sokolovun çaşqınlığı alman faşizminə, Vahidin çaşqınlığı erməni faşizminə ittihamdı. Sokolovun ittihamının hökmünü Böyük Vətən müharibəsində qazanılan qələbə verdi, Vahidin ittihamının hökmünü Vətən müharibəsində Azərbaycan Ordusunun qazandığı Zəfər...

Bu düşüncələrlə baş-başayam...

Həsrətlilər yoldan doq - qazlarına çatınca elə bilir ki, bir ömürlük yol yorub...

Vahid evlərinin qənşərində diz çökür, torpağı öpür, baxışları göy üzündən, əlləri uçub-dağılan evin divarlarından üzülmür. Daşı-divarı öpür Vahid: Bu, atamın ruhunun yerinə, bu, anamın ruhunun yerinə, bu, Əvəzin, bu, Qulunun, bu, Loğmanın yerinə, bu, özümün yerimə. Bağışla bizi, ata yurdum, bağışla, səni qoruya bilmədik, qada bəd gətirdi. Zərrəcə günahımız olmasa belə bağışla... Bağışla...

Vahid 28 il doğma səsə, doğma nəfəsə tamarzı qalan tut ağacına sarılıb. Onu ana əvəzi bağrına basıb hönkürhönkür ağlayır: "Anam səni beşinci oğlu bilirdi. Qaçqın - lıqda fikri-zikri sənin yanındaydı. Anamız yoxdu, ağac qardaşım, anamızı qaçqınlıq sıxıntıları, qaçqınlıq dərdi apardı...", - ürəklə dinlənilərsə, eşidilən pıçıltıdı...

Vahid həyətlərində uşaqlığının, yeniyetməliyinin izlərini axtarır sanki. Tapa bilməyəcəyini gümanlasa da axtarır...

Qəlbim qana dönür. Minlərlə Vahidlər bu günə düşüb, düşür, düşəcək. Ata yurdu ömrün başlanğıcıdı. Ömrünün başlanğıcını bu görkəmdə görənlərin ruh qardaşı kimi o ağrıları mən də yaşamışdım, indi həmin ağrı-acıları tifaqı dağılan, odu 28 il əvvəl söndürülən ocaqla diz-dizə, göz-gözə yaşayıram...

Yolçəkənlərin səsi hələ buralara çatmır...

Yeni yol çəkilir. Bu yol Qubadlıya aparacaq, Laçına aparacaq. Başlanğıcı ürəyimiz olan bu yolla Cəbrayıla, Zəngilana, Qubadlıya, Laçına rahatlıqla tikinti materialları daşınacaq, şəhərlər, qəsəbələr, kəndlər yenidən qurulacaq. Babaylı da yenidən qurulacaq. Babaylılar dikələn Babaylıdan - tarixin yaxşı tanıdığı kənddən dünyaya barmaq qıcayacaq: Gədələrinə yiyəlik elə, sərsəm dünya!..

Kəndin yollarından biri nazilib, nazilib, cığıra dönüb, cığırı ot basıb. İşğaldan azad edilən yüzlərlə kəndin minlərlə cığırı bu gündədi. 28 il gediş-gəlişlərə həsrət qalan yolun-izin, cığırın cücərtdiyi ota dərd otu deməyim, bəs nə deyim?

Gözlərdə yaşa döndüm,
Çəkmədim haşa, döndüm...
Dərd cücərdən yol gördüm,
Quruyub daşa döndüm...

Yiyəsi ola-ola yiyəsiz qalan evlərin dərdini sözə çevirmək mümkünmü?

Zəfərin hökmüylə bu evlərin də yiyələri qayıdacaq, damı sökülən, qapı-pəncərəsi yağmalanan, divarları uçulan evlər günahsız günahkarlarını qınamayacaq. Ata yurdundan iraq düşənləri 28 il gündüzlər xəyallarına, gecələr yuxularına sarılan həsrət yaşadıb. Babaylılar da 28 il bu talenin cəfakeşi olub. Məmmədqulu kişi çaylaq daşları yığıbmış həyətinə. Bir ev də tikəcəkdi. Son nəfəsi buna yetmədi. Səliqəsi pozulmayan daş qalağı Vahiddən bir yaş böyükdü. O daşlar 60 il əvvəl necə yığılmışdısa, eləcə də durur. Rəngi qaralıb daşların. Üstündən keçən illərmi qaraldıb, xiffətmi? Həsrət pərsəngli vaxt, zaman xiffət deyil, bəs nədir?..

"Sənin ruhunun xeyirduasıyla evimizi tikəcəyik, ay ata. Bu daşlar təzə evimizin divarları olacaq...", - kəlmələrini 28 yaşlı həsrətin son nəfəsindən sonra ata yurduna sədaqətin ilk niyyəti bilirəm...

Vahid həyətlərindən bir qoşa ovuc torpaq götürür. Anasına Babaylıdan göz torpağı aparacaq, anasının ruhu rahatlıq tapacaq. "Sunuz yerisin, a altmış yaşlı sonbeşiyim. Gətirdiyin bir ovuc torpaq mənim ruhuma ehsandı. Mənim qəbrimdən də bir ovuc torpaq götürərsən, atanın qəbrinə səpərsən, ata yurdunun da gözləri yoldan yığılsın,..", - Vahid bu səsin doğmalığına sarılan kimi dayanıb baxır evlərinə. Anasının ruhunun da əvəzinə baxır, bütün babaylıların da gözləriylə baxır...

"Elə bil kənd balacalaşıb. Elə bil torpaq dikəlib, yollar gödəlib, bulaqlar qurudugundan ağaclar torpağın təkinə çəkilib...", - köz-köz yanan kəlmələr dərdin büründüyü cəyinə dönür. Bilmək olmur gileydimi, əndişədimi, bilmək olmur kimə ünvanlanıb...

Gözlərim Vahidin gözlərindən üzülmür. Tək olsaydı, bəlkə də bu anlarda göz yaşları yanağını yandırardı. Bayaq dizi də, üzü də, torpağa döşənəndə iki qolunun qənşərinə iki damla göz yaşı düşmüşdü. Bilmədim o iki damla yaş kövrəklik yaşıydımı, şükranlıq yaşıydımı. O yaş deyirdi ki,

30 yaşlı nar ağacım,
Gileyinmi var, ağacım?..
Səndən ayrı günlər acı, aylar
acı, illər acı...
Səni ana əvəzinə əzizləyim,
nar ağacı...

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər:
## hadisələr, faktlar

### "Bayraktar TB2" 400 min uçuş saatı ilə türk aviasiya tarixində yeni rekorda imza atıb



Türkiyənin ilk milli və analoqu olmayan "Bayraktar TB2" silahlı pilotsuz uçuş aparatı (SİHA) 400 min uçuş saatını müvəffəqiyyətlə tamamlayaraq türk aviasiya tarixində yeni rekorda imza atıb.

Bu barədə "Baykar" şirkətindən bildirilib.

Türk aviasiya tarixində yeni mərhələ açan "Bayraktar TB2" bu rekordla Türkiyənin səmada ən uzun zaman keçirən ilk milli SİHA-sı olub. 2014-cü ildə Türkiyə Silahlı Qüvvələrinin inventarına daxil olan "Bayraktar TB2" texniki xüsusiyyətləri və əməliyyatlarda istifadəsi baxımından dünyanın bu sahə üzrə ən qabaqcıl və yaxşı texnikası hesab edilir.

Bu aparatlar Azərbaycanın Zəfərlə nəticələnən 44 günlük Vətən müharibəsində döyüş vasitəsi olaraq özünü tam sübut edib.

Müdafiə analitiklərinin araşdırmalarına görə, "Bayraktar TB2" SİHA-ları ikinci Qarabağ müharibəsi zamanı Ermənistan ordusunun bir çox hava hücumundan müdafiə sistemini, radar sistemini, tanklarını, zirehli texnikasını, yük maşınlarını, arsenallarını eləcə də mövqe və bölmələrini məhv edərək, dünya hərb tarixində yeni səhifə açıb.

### ABŞ Müdafiə Nazirliyinin sabiq rəhbəri Pentaqonu məhkəməyə verib



Sabiq müdafiə naziri Mark Esper Pentaqonu məhkəməyə verib.

Esperin çapa hazırlanan memuarlarında onun fikrincə vacib informasiyanın senzura tərəfindən çıxarılması sabiq müdafiə nazirinin hiddətlənməsinə səbəb olub.

Esperin iddia ərizəsində deyilir: "Mətnin xeyli hissəsi məxfilik bəhanəsi ilə çıxarılır. Çıxarılan mətn kitabda söhbət gedən mühüm hadisələrin şərhi üçün zəruridir. Konstitusiyaya Birinci düzəlişə uyğun olaraq mənə verilən konstitusion hüquqlarımın indiki administrasiya tərəfindən pozulması məni çox məyus edib. Təəssüflə qeyd edirəm ki, bütün həqiqəti Amerika xalqına söyləmək üçün məndən ötrü yeganə əlçatan üsul məhkəməyə müraciət etməkdir".

### Əfqanıstanda təliblər İŞİD qruplaşmasının bazasını məhv ediblər



"Taliban" hərəkatı Əfqanıstanın şərqində yerləşən Nanqarhar əyalətində İŞİD qruplaşmasının bazasını məhv edib.

Yerli hakimiyyət orqanının məlumatına əsasən, səhər saatlarında Zanqvay kəndində təliblərlə İŞİD silahlıları arasında baş verən toqquşmada yüngül və ağır silahlardan istifadə olunub.

Nanqarhar əyalətinin polis bölməsindəki mənbənin sözlərinə görə, döyüş nəticəsində biri qadın olmaqla üç İŞİD silahlısı öldürülüb, biri isə sağ olaraq ələ keçirilib. Bir müddət öncə "Taliban" hərəkatı tərəfindən təyin olunan Əfqanıstan Silahlı Qüvvələrinin qərargah rəisi Qari Fasihuddin İŞİD qruplaşmasının ölkənin bəzi rayonlarında mövcud olan üzvlərinin sabitliyə təhdid yaratdığını bildirib.

Qeyd edək ki, "Taliban" hərəkatı avqust ayında ABŞ və NATO qoşunlarının Əfqanıstandan çıxarılması fonunda ölkənin bütün əyalətlərinə nəzarəti ələ keçirib. Avqustun 15-də paytaxt Kabilə döyüşsüz daxil olan təliblər müharibənin bitdiyini elan ediblər. Avqustun 31-nə keçən gecə amerikalı hərbçilər Kabil hava limanını tərk edib və bununla da ABŞ-ın Əfqanıstandakı 20 illik hərbi mövcudluğuna son qoyub. Sentyabrın əvvəlində "Taliban" hərəkatının əvvəlki hakimiyyəti dövründə xarici işlər naziri vəzifəsində çalışmış Məhəmməd Həsən Axundun rəhbərliyi ilə Əfqanıstanın müvəqqəti hökumətinin tərkibi elan olunub. Hələlik heç bir ölkə "Taliban" hökumətini tanımayıb.

**AZƏRTAC-ın materialları əsasında**

# Şəhidlərimizin keçdiyi həyat yolu nümunədir

Zaman ötdükcə, fəsillər dəyişir, günlər ayları, aylar illəri, illər əsrləri, əsrlər minillikləri əvəz edərək tarix olur. Bu illər ərzində bir çox hadisələr baş verir ki, müəyyən dövrdən sonra yaddaşlardan silinir, unudulur. Lakin elə tarixi hadisələr də var ki, heç vaxt unudulmur. 44 günə yazılan şanlı Zəfər tariximiz kimi. Həmin günlər yaddaşlara əbədi həkk olundu. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə rəşadətli ordumuzun əks-hücum əməliyyatı Böyük Qələbəmizlə başa çatdı. Otuz ilə yaxın həsrətdən sonra doğma yurdlarımıza qovuşduq, ərazi bütövlüyümüz təmin olundu. Dövlət, xalq və ordu birliyi dəmir yumruq olub düşmənin başını əzdi. Mərd oğullarımız tarix yaza-yaza tarixə yazıldılar. Onlar qələbəni tarixin səhifələrinə öz qanları ilə həkk etdilər. Bu müqəddəs yolda canlarından keçərək şəhidlik zirvəsinə ucalanlar, gələcək nəsillərə örnək olacaq ömür yadigar qoydular. Tarixin bütün səhifələrində Vətənimizi yağılardan mərdliklə qoruyan, torpaqlarımızın azadlığı uğrunda cəsarətlə döyüşən qəhrəman əcdadların haqq savaşını zəfərlə başa vurdular. Qarabağımızı azad edərək illər boyu bu yolda, bu amal uğrunda şəhid olan bütün soydaşlarımızın ruhlarını şad etdilər.

...Qərinələr ötür, nəsillər bir-birini əvəz edir. Lakin bizə qələbə sevinci bəxş edən şəhidlərimiz, torpaq uğrunda canından keçən oğul və qızlarımız heç vaxt unudulmurlar. Ən ali, müqəddəs və şərəfli zirvə olan şəhidlik zirvəsinə yüksələnlər aramızda olmasalar da, ürəklərimizdə hər zaman yaşayırlar.

Vətənpərvərliyin ən ali məqamı şəhidlikdir. Şəhidlik zirvəsi isə hünər və qeyrət simvoludur. Bu ucalığa yüksələnlərin ömür yolu qısa olsa da, şərəfli və örnək sayılır. Belə şərəfli ömür sahiblərindən biri də əsgər Vüsal Aftandil oğlu Məmmədovdur. Onun şəhadətindən bir il ötür.

Noyabrın 28-də Vətən müharibəsi şəhidi əsgər Vüsal Məmmədovun anım günü keçirildi. Mərasimə toplaşan şəhidin ailə üzvləri, yaxınları, Binəqədi rayon İcra Hakimiyyətinin nümayəndələri, döyüş yoldaşları, təhsil aldığı orta məktəbin müəllim və şagirdləri, həmçinin məzunu olduğu Milli Aviasiya Akademiyasının kollektivi, şəhid ailələri, qazilər və ictimaiyyət nümayəndələri onun Binəqədi rayon qəbiristanlığında məzarı önünə çələnglər qoyaraq, ruhuna dualar oxudular. Davam edən mərasimdə əvvəlcə



xalqımızın ümummilli lideri Heydər Əliyevin, Vətənimizin suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Dövlət Himni səsləndirildi.

Hacı Elvin Səmədov tədbiri açıq elan edərək Vüsalın həyatı və döyüş yolundan geniş məlumat verdi.

- Məmmədov Vüsal Aftandil oğlu 1997-ci il iyunun 2-də Bakı şəhərində anadan olub. İki yaşında atasını itirən Vüsal 2003-cü ildə Binəqədidə yerləşən 179 saylı tam orta məktəbin 1-ci sinfinə qəbul olub. 2014-cü ildə təhsilini başa vuraraq Milli Aviasiya Akademiyasının "Hava nəqliyyatının hərəkətinin idarə edilməsi" ixtisasına qəbul olub. 2019-cu ildə təhsilini başa vuraraq həqiqi hərbi xidmətə yollanıb və Azərbaycan Ordusunun "N" hərbi hissəsində xidmətə başlayıb. 2020-ci il 27 sentyabr tarixində başlayan Vətən müharibəsinin iştirakçısı olub. Talış və Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə igidlik göstərən Vüsal yaralanmağına baxmayaraq döyüş meydanını tərk etməyib. Sona qədər mətinliklə və qətiyyətlə döyüşərək şəhidlik zirvəsinə ucalıb. Göstərdiyi qəhrəmanlığa görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

Anım mərasimində Vüsalın ailə üzvləri və yaxınları ilə həmsöhbət olaraq, düşüncə və xatirələrini dinlədim. Əvvəlcə anası Mahirə xanım danışdı. Məğrur duruşlu ana oğlu ilə son söhbətlərindən söz açdı. "Bu mövzuda danışmaq mənim üçün çox çətin, bir o qədər də qürurvericidir. Oğlumun həsrəti çox acıdır, lakin fərəhlidir. Çünki o, minlərlə Vətən oğlu kimi torpaqlarımızın azadlığı uğrunda canını qurban verərək şəhidlik zirvəsinə ucalıb. Vüsallarımız sadəcə dünyalarını dəyişir, ruhları isə hər zaman bizimlədir. Ötən il düşmən təxribata əl atanda Vüsal hərbi xidmətinin son günlərini yaşayırdı. Ordumuz əks-hücuma keçəndə oğlum zəng edərək sevinclə "Ana, döyüşə gedirəm, halallığını ver. Vətən bizi səsləyir, qisas günü çatıb. Düşməni torpaqlarımızdan qovacağıq", - dedi. Talış kəndi azad olunduqdan sonra yenə zəng edərək sevincini mənimlə bölüşdü. İnamla irəlilədiklərini, qələbə qazandıqlarını bildirdi. Sonuncu dəfə isə oktyabrın 6-da danışdıq..."

Qəhərlənən ana bir neçə saniyə susdu. Duyğularını məğrurluqla cilovlayan Mahirə xanım sükutu pozaraq "Vətən sağ olsun!", - dedi. Vüsalın nəşinin oktyabrın 29-da Binəqədidə Şəhidlər xiyabanı kompleksində dəfn edildiyini bildirdi.

Həyat yoldaşını vaxtsız itirən, təkbaşına belə mərd, igid, vətəpərvər oğul böyütdüyü üçün anamıza dərin minnətdarlığımı bildirib, xalqımızın onun kimi qəhrəman analarla qürur duyduğunu vurğuladım.

Bacısı Gülnar xanımın düşüncələrini öyrənirəm. Vüsal onun yeganə qardaşı idi. Məğrurluqla və qürurla qardaşının Vətən sevgisindən, Vətənə bağlılığından ağızdolusu danışdı. Vüsalın uşaqlıqdan dostcanlı, mehriban, qayğıkeş olduğunu bildirdi. "Məhləmizdə, məktəbdə, ali təhsil aldığı akademiyada Vüsalın səmimiyyətindən, insanlara qarşı sevgisindən, mərdliyindən hər kəs danışırdı. Belə qardaşım olduğu üçün həmişə fəxr etmişəm. İndi isə ikiqat fəxr edirəm. Onun müsbət keyfiyyətlərindən biri də vətənpərvərliyi idi. Döyüşlərin iştirakçısı olmağı həmişə arzu edirdi. Xocalı soyqırımından olan kadrlar ona çox pis təsir edirdi. Qisas hissi ilə alışıb yanırdı. Sonuncu dəfə zəng edəndə də həyəcan və qürurla deyirdi ki, erməni terrorunun qurbanı olan bütün soydaşlarımızın qisasını alırıq. Şükürlər olsun ki, ordumuz Böyük Qələbə qazandı. Vüsal kimi minlərlə qardaşımızın qanı yerdə qalmadı. Allah bütün şəhidlərimizə rəhmət etsin".

Vüsalın bacısı, həmçinin şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidentinə minnətdarlığını bildirdi. Rəşadətli ordumuzun şanlı qələbəsindən, işğaldan azad olunan torpaqlarımızda üçrəngli Azərbaycan bayrağının dalğalanmasından təsəlli tapdıqlarını diqqətə çatıran Gülnar xanımın sözlərini oğlu tamamladı. "Dayım kimi qəhrəman olacam", - dedi 3 yaşlı Alparslan.

Şəhidin yaxınlarından, Məlahət İsmayılova bildirdi ki, Vətən müharibəsinin qəhrəmanı olan şəhidlərimiz haqqında nə qədər danışılsa da yenə azdır. "Həyatda ən böyük xoşbəxtlik də elə Vətən yolunda şəhid olmaqdır. Lakin hər insana da şəhid olmaq, o əlçatmaz zirvəyə ucalmaq nəsib olmur. Şəhidlərimizin göstərdikləri şücaət, keçdikləri döyüş yolu, onların yüksək iradəsi, mənəvi keyfiyyətləri, Vətən sevgiləri, igidlikləri gələcək nəsillər üçün nümunədir. Azərbaycan miqyasında günəş kimi parlayan bu adlar hər kəsə yol göstərir: zəfər yolunu, qələbə yolunu, mərdlik yolunu, torpaqların düşməndən təmizlənməsi yolunu. Hər evdə, hər ailədə, hər bir kollektivdə bu igid insanların rəşadətindən söhbət gedir. Hamı onlara əhsən deyir. Hamı onlardan nümunə götürməyə çalışır. Allah bütün şəhidlərimizə rəhmət eləsin, qazilərimizə cansağlığı versin".

Şəhidin dostları Vətən müharibəsinin iştirakçıları olan Fazil, Fərid, qazi gizir Xəzər Əliyev də Vüsal haqqında xatirələrindən söhbət etdilər, onun qorxmaz, igid olduğunu bildirdilər. Döyüşlər zamanı göstərdiyi şücaətlərdən danışdılar. Sinif yoldaşları Şıxəli, Aprel döyüşlərinin iştirakçısı Həsən, Vasif və Bayram Vüsalın dostcanlı olduğunu, hər kəsin sevgisini qazandığını bildirdilər. Onun igidliyi ilə fəxr etdiklərini vurğuladılar.

...Məlahət xanımın dediyi kimi, şəhidlərimiz haqqında nə qədər danışılsa da azdır. Hər bir Azərbaycan vətəndaşı qürur mənbəyimiz olan şəhidlərimizi, onların keçdiyi həyat yolunu nümunə bilməli, qəhrəmanlarını tanımalı və tanıtmalıdır. Bu mübarizədə şəhidlik zirvəsinə ucalanların xatirəsini yaşatmaq, onları gəncliyə nümunə göstərmək hər kəsin vətəndaşlıq borcudur.

**Baş leytenant
Mahmud MÖHBALIYEV
"Azərbaycan Ordusu"**

# İdman

## Azərbaycan para-pauerliftinqçisi dünya çempionatında bürünc medal qazanıb




Azərbaycan Respublikası Milli Paralimpiya Komitəsinin (AMPK) pauerliftinq üzrə milli komandasının üzvü Zəhra Dadaşova dünya çempionatında fərqlənib.

Tbilisidə keçirilən dünya çempionatında gənclər arasında 50 kiloqram çəki dərəcəsində çıxış edən təmsilçimiz bürünc medal qazanıb.

## Sərbəst və yunan-Roma güləşi üzrə Azərbaycan çempionatı keçiriləcək




Dekabrın 7-dən 9-dək sərbəst və yunan-Roma güləşi üzrə Azərbaycan çempionatı keçiriləcək.

Milli komandalara seçim xarakteri daşıyan ölkə birinciliyi Bakı İdman Sarayında baş tutacaq. Azərbaycan Güləş Federasiyasının və Gənclər və İdman Nazirliyi ilə birgə təşkil edəcəyi yarış beynəlxalq və milli dərəcəli hakimlər tərəfindən idarə olunacaq.

Çempionatın proqramına əsasən, dekabrın 7-də yunan-Roma güləşi üzrə 55, 60, 63, 67, 72, 77 və 82 kiloqram çəki dərəcələrində qaliblər müəyyənləşəcək. Həmin gün saat 16:00-da yarışın təntənəli açılış mərasimi başlayacaq. Növbəti gün klassik güləşdə 87, 97 və 130, sərbəst güləşdə isə 57, 61, 65 və 70 kiloqram çəki dərəcələrində medalçıların adına aydınlıq gələcək. Yarışın sonuncu günündə isə 74, 79, 86, 92, 97 və 125 kiloqram çəki dərəcələrində ölkənin ən güclü sərbəst güləşçiləri bəlli olacaq.

Qeyd edək ki, ölkədə davam edən karantin rejimi ilə əlaqədar olaraq Azərbaycan çempionatı azarkeşsiz keçiriləcək.

## "Qarabağ" klubu UEFA-nın reytinqində 59-cu pillədə qərarlaşıb




Avrokubokların qrup mərhələsinin beşinci turunun oyunlarından sonra klubların UEFA reytinqi açıqlanıb.

İlk "100-lük"də Azərbaycanın yalnız bir klubu yer alıb. UEFA Konfrans Liqasında Kipr "Omoniya"sı ilə Bakıdakı 2:2 hesablı heç-heçə edən "Qarabağ" 25 xalla Avropada 59-cu yerə şərikdir. Qurban Qurbanovun yetirmələri "Başakşəhər"lə eyni göstəriciyə malikdir.

Azərbaycanın digər təmsilçilərindən "Neftçi" 7 xalla 162-ci pilləyə şərikdir. "Keşlə" 4. xalla 285-ci pilləni bölüşür. "Qəbələ" 3,5 xalla 301-ci pilləyə şərikdir. 3,4 xalı olan "Sumqayıt", "Səbail" və "Zirə" isə 307-cidir.

Cədvələ 131 xala malik "Bayern" (Almaniya) başçılıq edir. 124 xalı olan "Mançester Siti" (İngiltərə) ikinci, 120 xalı olan "Liverpul" isə üçüncüdür.

**AZƏRTAC-ın materialları əsasında**

Kapitan Həsənov Mahmud Seyran oğluna məxsus MN № 0008420 nömrəli zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Baş redaktorun müavini**
kapitan
Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Günay TAĞIYEVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 772
Nüsxə 4044